“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



Qəzet 1932-ci ildən çıxır № 1-2 (6793-6794) 9 fevral 2018-ci il Cəbrayıl RİH-nin orqanı

# Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirilib

## Qurultay aprelin 11-də keçiriləcək Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin namizədliyini irəli sürüb




■ Yeni Azərbaycan Partiyası ölkəmizdə aparıcı siyasi qüvvədir. Partiyamızın ideyaları, siyasəti xalq tərəfindən dəstəklənir. Partiyamızın sıraları genişlənir, 700 mindən çox üzvümüz var və çox sevindirici hal ondan ibarətdir ki, gənclər partiyaya üz tuturlar.

■ 25 il ərzində partiyamız uğurlu və şərəfli yol keçmişdir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanmışdır və bu 25 il qələbələr salnaməsidir.

■ Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir.

■ Gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaqdır, siyasi islahatlar davam etdiriləcəkdir. Son illər ərzində bu istiqamətdə gözəl nəticələr əldə edilib və bu, daimi prosesdir. Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik. Bu gün də vəziyyət çox yaxşıdır, müsbətdir. Bütün azadlıqlar - söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilir və ediləcəkdir. Bu, bizim prinsipial siyasətimizdir.

■ Bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bu, bizim böyük sərvətimizdir. Bu, ölkəmizin uğurlu inkişafı üçün əsas şərtlərdən biridir, vətəndaş həmrəyliyi, vətəndaş sülhü üçün əsas şərtdir. Azərbaycanda heç vaxt milli və ya dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır, bundan sonra da olmayacaq.

■ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaq.

■ Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq.

■ Təşəbbüsümüzlə həyata keçirilən layihələr Ermənistanı tamamilə kənarda qoymuşdur. Həm Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, “Cənub qaz dəhlizi”, Bakı-Tbilisi-Qars layihələri onlardan yan keçmişdir. Bizim siyasətimizə görə, Şimal-Cənub Nəqliyyat Dəhlizi də onlardan yan keçəcəkdir. Biz bunu gizlətmirik. Baxmayaraq, bəziləri çalışırlar bizi ittiham etsinlər ki, biz onları təcriddə saxlayırıq. Bəli, saxlayırıq və saxlayacağıq. O vaxta qədər ki, torpaqlarımız işğaldan azad olunsun. Bu siyasət öz nəticələrini verməkdədir. İndi heç kim Ermənistana sərmayə qoymur.

■ 2016-cı ilin aprel döyüşləri bunu əyani şəkildə düşmənə və bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu nəyə qadirdir. Döyüş meydanında bizim şanlı tarixi qələbəmiz əlbəttə ki, məsələnin ədalətli həlli üçün də yeni imkanlar yaradır və yaradacaqdır. Növbəti illərdə hərbi potensialın gücləndirilməsi üçün, ordu quruculuğu üçün nə lazımdırsa, o da ediləcək. Bizim güclü iqtisadi imkanlarımız var. Gündən-günə artan maliyyə resurslarımız, ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu burada, bu məsələdə prioritetdir.

■ Ölkə iqtisadiyyatının dayanıqlı inkişafını ancaq bu amillər - qeyri-neft sektoru, sahibkarlıq, idarəetmədə aparılan və aparılacaq islahatlar müəyyən edəcək. Ona görə iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, maliyyə, fiskal siyasətində ən qabaqcıl texnologiyalardan istifadə etməyimiz inkişafımız üçün əsas amillər olacaqdır. Deyə bilərəm ki, bu siyasət artıq öz nəticəsini vermişdir.

Qurultayda cənab İlham Əliyevin prezidentliyə namizədliyini ilk dəfə irəli sürən Cocuq Mərcanlı kəndinin sakini **Oqtay HƏZİYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident!

Hörmətli sədr!

Hörmətli qurultay iştirakçıları!

Sizi ölkəmizdə olan bir milyondan çox qaçqın və məcburi köçkünlər adından səmimi salamlayıram, qurultayın işinə uğurlar diləyirəm.

Mənim doğulduğum kəndin adı və hətta mənim adım cənab Prezidentin apardığı siyasət nəticəsində artıq bütün dünyada tanınır. Çünki Cocuq Mərcanlı işğal olunmuş ərazilərdən ilk azad edilən və bərpa olunan kənddir. Kəndimiz ulu öndərin rəhbərliyi ilə 1994-cü ildə azad olunsa da, burada yaşamaq mümkün deyildi. 2016-cı ilin aprel döyüşlərində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Lələtəpə yüksəkliyi azad olundu. Sonra dövlətimizin başçısının rəhbərliyi ilə qısa müddətdə kəndimizdə Şuşa məscidinin bənzəri olan gözəl məscid və 150 ev tikilib təhvil verildi.



Mən ailə üzvlərimlə birlikdə cəmi 5 ay köçkün həyatı yaşamışam. Ancaq köçkünlük həyatı ilə barışmayıb öz doğma kəndimə qayıdıb, 23 il atəş altında yaşamışam. Bütün çətinliklərə baxmayaraq, mən ailəmlə birlikdə torpağa bağlanıb əkinçiliklə, heyvandarlıqla məşğul olub, təsərrüfat qurub, onu inkişaf etdirib ailəmi dolandırmışam. Əziyyətim də yerdə qalmayıb. Qurduğum təsərrüfatda bu gün 700 baş xırdabuynuzlu, 70 baş iribuynuzlu mal-qara, arı təsərrüfatı var.

Cənab Prezident, mənə hədiyyə etdiyiniz 70 hektar torpaqda taxıl, çuğundur əkmişəm, 2 hektarda tut bağı salmışam. Lazım olan kənd təsərrüfatı texnikalarını almışam. Mən bu işlərə kənd sakinlərini də cəlb etmişəm.

Cənab Prezident, çox sağ olun ki, Siz kənd adamlarını torpağa qaytardınız. İnanıram ki, yeni texnologiyalar nəticəsində məhsuldarlıq 1970-ci illərdəkindən də yüksək olacaq. Biz torpaq adamıyıq, həmişə çörəyimiz torpaqdan çıxıb. Mən ətrafımda olan bütün insanlara həmişə deyirəm ki, torpağı sevin, onun dəyərini, qədrini bilin.

Cənab Prezident, Siz 2017-ci il iyunun 14-də Cocuq Mərcanlı kəndinin açılışı zamanı mənim ailəmə dördotaqlı mənzil hədiyyə etdiniz və birinci dərəcəli “Əmək” ordenini ilk dəfə mənə verdiniz. Kəndimizi bərpa etdiyinizə görə bütün Cocuq Mərcanlı sakinləri və cəbrayıllılar adından Sizə dərin təşəkkürümü bildirirəm. Sizə cansağlığı arzulayıram.

Hörmətli qurultay iştirakçıları, dövlətimizin başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident, partiyamızın sədr müavini hörmətli Mehriban xanım Əliyevanın biz məcburi köçkünlərə diqqət və qayğısını xüsusi qeyd etmək istəyirəm. İnşa edilən müasir qəsəbələrin və mənzillə təmin olunan qaçqın və məcburi köçkünlərin 95 faizi son 14 ilin payına düşür. Beləliklə, bu gün ölkəmizdə nə çadır şəhərciyi, nə fin qəsəbəsi, nə də dəmir yolu vaqonlarında yaşayan yoxdur.

Dörd qəzalı binada yaşayan 935 ailə hörmətli Mehriban xanımın tapşırığı ilə cəmi üç-dörd ay ərzində yeni mənzillərə köçürüldü. Dünyanın hansı ölkəsində qaçqın-köçkünə belə münasibət var? Heç birində. Əksinə, başqalarına nağıl danışan dövlətlər onlara pənah gətirən qaçqınlara arxa çevirir, onları insan yerinə belə qoymurlar.

Biz məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğıya görə, cənab Prezident, Sizə və Birinci vitse-prezident, partiyamızın sədr müavini hörmətli Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident, bütün xalqımız kimi, biz məcburi köçkünlər də həmişə Sizinlə bir olmuşuq, bu gün də birik və sabah da Sizinlə bir olacağıq.

Hörmətli qurultay iştirakçıları, mən qarşıdakı prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürürəm.

# Hesabat yığıncağı keçirildi















Fevralın 6-da Biləsuvar rayonu ərazisindəki 4 saylı qəsəbə klubunda Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovun 2017-ci ilin yekunu və 2018-ci ildə qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilmişdir.

Yığıncaqdan öncə 3 saylı qəsəbə ərazisindəki parkda Ümummilli Liderimiz Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyulub, xatirəsi anılmışdır.

Prezident Aparatının məsul işçisi Ağəli Əhmədov, rayonun rəsmi şəxsləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən yığıncağı RİH-nin başçısı cənab Kamal Həsənov açdı, əvvəlcə torpaqlarımızın bütövlüyü yolunda qurban gedən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Rayon İcra Hakimiyyətinin başçısı ötən ildə rayonda görülmüş işlərin yekunu və cari ildə qarşıda duran vəzifələrlə bağlı geniş, əhatəli məruzə etdi.

Kamal Həsənov məruzəsində əvvəlcə diqqəti respublikadakı ümumi vəziyyətə yönəldib dedi:

- Dünyanın aparıcı beynəlxalq təşkilatları, maliyyə qurumları Azərbaycanda gedən proseslərə yüksək qiymət verirlər. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə dünya miqyasında 35-ci, makroiqtisadi mühitə görə 39-cu, Dünya Bankı tərəfindən "Doing Business 2018" hesabatında isə ölkəmiz 8 pillə irəliləyərək 57-ci yerə yüksəlmişdir. Həmçinin 2017-ci il "Global Fire Power" mərkəzinin dünyanın 133 ölkəsində 50 göstərici üzrə hazırladığı dünyanın ən güclü ordularının reytinqi siyahısında Azərbaycan ordusu hərbi qüdrətinə görə region ölkələrini qabaqlayaraq 58-ci sırada qərarlaşmışdır. Bu siyahıda Gürcüstan 82-ci, Ermənistan isə 93-cü yerdədir.

Daha sonra rayonun sosial-iqtisadi göstəricilərindən, qazanılan nailiyyətlərdən danışdı, eyni zamanda buna müvafiq də qarşıda duran məsələlərin həlli istiqamətində görüləcək işləri diqqətə çatdırdı:

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci ildə təkcə Cocuq Mərcanlı kəndi ilə bağlı bir neçə silsilə sərəncamlar imzalamışdır. Çox böyük tarixi və siyasi əhəmiyyət kəsb edən bu Sərəncamların dördü kəndin bərpası, biri isə doğma torpaqlara dərin bağlılıq nümayiş etdirməklə insanların vətənpərvərlik hisslərinin yüksəlməsində göstərdiyi şəxsi nümunəyə görə Cocuq Mərcanlı kənd sakini Oqtay Həziyevin "1-ci dərəcəli Əmək ordeni" ilə təltif edilməsi barədə olmuşdur.

Cənab Prezidentin, Qarabağa böyük qayıdışın başlanğıcını qoymuş olduğu "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" 24 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən kənddə ilkin mərhələdə 10 hektar ərazidə geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri aparılmış, 50 fərdi yaşayış evi, 96 şagird yerlik ümumtəhsil məktəbi, Şuşa məscidinin bənzəri olan məscid, 35/10kv-luq elektrik yarımstansiyası, hidrometereoloji stansiya, "Azəravtoyol" ASC-nin və "Azərsu" ASC-nin yerli idarələrinin binaları inşa edilmiş, qaz, elektrik, içməli su, rabitə telefon xəttləri çəkilmişdir.

Horadiz şəhərindən hazırda işğal altında olan Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarına qədər uzanan magistral yoldan Cocuq Mərcanlı kəndinə yol çəkilməsi üçün 10 fevral 2017-ci il tarixli Sərəncamla "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə 4.3 milyon manat vəsait ayırmış və kəndə qısa müddət ərzində 9 km uzunluğunda asfalt örtüklü yol çəkilərək burada məskunlaşdırılan sakinlərin və Cocuq Mercanlıya gələn qonaqların istifadəsinə verilmişdir.

Bərpadan sonra Ölkə başçısı 14 iyun 2017-ci il tarixdə Cocuq Mərcanlı kəndinin açılışında şəxsən özü iştirak edərək birinci mərhələdə 50 Cocuq Mərcanlı ailəsinin öz doğma kəndinə qayıtmasına xeyr dua vermişdir.

Birinci mərhələnin başa çatdığını nəzərə alaraq Cənab Prezident "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" 15 iyun 2017-ci il tarixli növbəti Sərəncam imzaladı. Məhz bu Sərəncama uyğun olaraq qısa zamanda kənddə əlavə 100 fərdi yaşayış evi, uşaq bağçası, həkim məntəqəsi, klub-icma mərkəzi, poçt, ərazi nümayəndəliyinin inzibati binası tikilərək istifadəyə verilmişdir. İkinci mərhələ üzrə Cocuq Mərcanlı kəndinə köçmək istəyində olan sakinlərin adlı siyahısı hazırlanaraq aidiyyəti üzrə Komitəyə təqdim edilmiş və yaxın müddətdə köçürmə prosesinə başlanacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bərpadan sonra Cocuq Mərcanlı kəndində məskunlaşan əhalinin kənd təsərrüfatı ilə məşğul olmalarını təmin etmək üçün əkin sahələrinə



suvarma suyu çəkilməsi barədə 13 sentyabr 2017-ci il tarixli növbəti Sərəncam imzalamışdır. Hazırda kəndin əkin sahələrinə Araz çayından su çəkilməsi sürətlə davam etdirilir. Layihə üzrə görüləcək işlərin ümumi həcminin indiyə qədər 80 fazi icra edilmiş və yaxın aylarda obyektin tam istifadəyə verilməsi nəzərdə tutulur.

İndi əsas vəzifə Cocuq Mərcanlı kəndinə köçürülmüş əhalinin təhlükəsizliyi və əmək qabiliyyətli sakinlərin məşğulluq məsələsidir.

Daha sonra Kamal Həsənov ötən il üçün rayonumuzda kənd təsərrüfatı, mədəniyyət və turizm, təhsil, səhiyyə və başqa sahələrdəki statistik göstəricilərə də diqqəti yönəltdi:

- Keçən hesabat ilində Salyan regional təhsil idarəsi tərəfindən rayonun 14 saylı, 25 saylı, Dəmşəlaq, Çullu və Çərəkən kənd tam orta məktəblərində cari təmir işləri aparılmışdır. Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi tərəfindən verilən 20127 manatlıq 401 dəst oğlan-qız paltarı və Təhsil Nazirliyi tərəfindən verilmiş 26940 ədəd müxtəlif adda dərslik pulsuz olaraq bölgü əsasında ümumtəhsil məktəblərinə paylanmışdır.

Cənab Prezident "Beynəlxalq Müəllimlər günü" münasibətilə, təhsilin inkişafında xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsində yüksək nailiyyətlər əldə etdiyinə görə Fuad Əsədov adına Quycaq kənd tam orta məktəbin coğrafiya müəllimi Süleymanova Tahirə Mehrac qızını "Tərəqqi medalı" təltif etmiş, Təhsil Nazirliyinin müvafiq əmri ilə isə 8 saylı tam orta məktəbin riyaziyyat müəllimi Musayev Mahmud Musa oğlu "Qabaqcıl Təhsil İşçisi" döş nişanı, Vahid İsmayılov adına Çərəkən kənd tam orta məktəbin ingilis dili müəllimi Cavadov Cəmil İsmayıl oğlu və Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Quliyeva Səidə Allahyar qızı "Fəxri Fərman"la təltif olunmuşdur.

Rayon rəhbəri 2017-ci il ərzində Rayon İcra hakimiyyəti başçısı aparatına 540 vətəndaş müraciətinin daxil olduğunu diqqətə çatdıraraq bildirdi ki, bunlardan 77 ədədi Prezident Administrasiyasından, 5-i Milli Məclisdən, 66-sı Nazirlər Kabinetindən, 158-i digər Respublika təşkilatlarından olmaqla ümumilikdə 306 ədədi yuxarı təşkilatlardan, 234 ədədi isə birbaşa vətəndaşlardan daxil olmuşdur.

Daxil olmuş müraciətlərdən əhalinin sosial müdafiəsi (166), birdəfəlik maddi yardım göstərilməsi (119), mənzil məsələsi (65), işlə təmin olunma (44), əmək haqqı məsələləri (21) üstünlük təşkil etmişdir. Digər müraciətlər isə torpaq, qəyyumluğa və övladlığa götürmə, qəbul, ad və soyadın dəyişdirilməsi, veteran vəsiqəsi verilməsi, təhsil, enerji, qaz, su təchizatı və digər məsələlərlə bağlı olmuşdur.

Kamal müəllim bundan sonra da daha əzmlə çalışaraq rayon əhalisinin sosial-maddi rifah halının yaxşılaşdırılması istiqamətində uğurlara nail olunacağına yığıncaq iştirakçılarını əmin etdi. Sonda Ölkə prezidentinin apardığı daxili və xarici siyasətə tərəfdar olmaqla rayon əhalisinin bir daha onun ətrafında sıx birləşəcəyini və bu il keçiriləcək Prezident seçkilərində Cəbrayıl seçicilərinin hamılıqla ona səs verəcəyinə əminliyini ifadə etdi.

Məruzə ətrafında Cəbrayıl rayonu üzrə Maliyyə şöbəsinin müdiri Famil Balayev, M.Mehdizadə adına tam orta məktəbin direktoru Şəlalə Qasımlı, Cocuq Mərcanlı kənd sakini Zamiq Həziyev və başqaları çıxışlar edərək rayon İcra Hakimiyyəti başçısının illik hesabatını kafi qiymətləndirdilər.

Daha sonra şəhid anası Səkinə Quliyeva, Hidayət Səfərli, Cocuq Mərcanlı kənd sakini Atakişi Atakişiyev və başqaları yerlərdən çıxışlar alaraq təklif və fikirlər səsləndirdilər və Rayon İcra Hakimiyyətinin ötən ildəki fəaliyyətinə yüksək qiymət verdilər.

Rayon İcra Hakimiyyətinin başçısı K.Həsənov çıxışlara yekun vurdu. Prezident Aparatının məsul işçisi Ağəli Əhmədov yığıncaqda səsləndirilən fikirlərə və təkliflərə münasibətini bildirdi.

Hesabat yığıncağının iştirakçıları adından ölkə prezidenti İlham Əliyev cənablarına Müraciət qəbul olundu.

**“Xudafərin”**

# Cocuq Mərcanlı kəndində ərazi nümayəndəliyinin hesabatı

Yanvarın 24-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd inzibati ərazi dairəsi nümayəndəliyində hesabat yığıncağı keçirildi.

Yığıncaqda rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, İcra Başçısının müavini Tapdıq Nəsirov, Kənd təsərrüfatı şöbəsinin müdiri Şahin Şirinov və kənd sakinləri iştirak etmişlər.

Yığıncağı Cəbrayıl RİHB-nın C.Mərcanlı kənd İƏD üzrə nümayəndəsi Xanlar Zeynalov açaraq dedi:

- Uzun illərdən sonra ilk dəfə olaraq Yeni ili öz doğma kəndimiz olan Cocuq Mərcanlıda qeyd etdik. Bu gün Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan böyük bir məscid də ucaldılıb. 150-ə yaxın evdən ibarət gözəl bir qəsəbə salınaraq qaz, işıq, su ilə təmin edilmişdir. İnsanların rahatlığının təmin olunması üçün tibb məntəqəsi, uşaqların təhsil almaları üçün 90 nəfərlik məktəb binası, uşaq bağçası, kənd əhalisinin asayişini təmin etmək üçün polis bölməsi yaradılmışdır. Bu onun sübutudur ki, Cocuq Mərcanlı kəndinin bərpası Qarabağa Böyük Qayıdış proqramının anonsu və əyilməz ruhumuzun rəmzidir.

Kənd sakinləri uzun illərdən sonra öz gənclərini ilk dəfə doğma kəndləri olan Cocuq Mərcanlıdan hərbi xidmətə yola salmışlar. 9 noyabr Bayraq Günü münasibətilə Ombudsman Elmira Süleymanova Cocuq Mərcanlı kəndinə işgüzar səfər etmişdir. Yem Emalı müəssisəsinin təməlinin qoyulması, xalçaçılığın davam etdirilməsi yönümdə işlərin aparılması Cocuq Mərcanlı sakinləri üçün sevindirici haldır.

Xanlar Zeynalov diqqəti ərazi dairəsi üzrə məlumatlara yönəldərək dedi:

- Bu gün C.Mərcanlı kənd sakinləri məlum səbəblərdən respublikamızın 21 adda rayon və şəhərlərində müvəqqəti məskunlaşmışdır. 2016-cı ilin aprel döyüşləri zamanı rəşadətli ordumuzun işğaldan azad etdiyi Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndinin bir hissəsi demək olar ki, tam şəkildə ordumuzun nəzarətinə keçmişdir. Azad olunmuş ərazilərdə ilk öncə minalardan təmizləmə işləri aparılaraq təmizlənmiş ərazilərə yenidən baxışlar keçirilmiş və insanların yaşaması üçün heç bir təhlükənin olmadığının əminliyinə vardıqdan sonra 2017-ci ilin mart ayından cənab prezidentimizin göstərişilə C.Mərcanlı kəndində yeni qəsəbənin tikilməsinə start verilmişdir. 4 ay içərisində kənd əhalisinin yaşaması üçün yeni evlər tikilərək sahiblərinə təhvil verilmişdir. Tam şəkildə kəndin bərpası mümkünsüz olsada 150 evlik bir qəsəbənin salınması da bizlər üçün böyük bir uğurdu. Erməni səngərlərilə yaxın bir məsafədə yerləşməsinə baxmayaraq, kənd sakinləri Azərbaycan Ordusunun qüdrətinin nəyə qadir olduğunu bilərək düşmənlə ön xəttə yaşamaqdan bir an belə olsun çəkinmirlər. Kənd sakinlərinin rifahının yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə edilmişdir.

2017-ci ilin statistik məlumatlarına görə, kənd əhalisinin sayında 57 nəfər artım qeydə alınaraq 1490 nəfər olmuşdur. 397 təsərrüfat və 421 kart ailəsi vardır. Təlimatın müvafiq maddələrinə əsasən onlardan 254 nəfəri aylıq yeməkxərci müavinəti almır. Cari ildə nümayəndəliyə 35 nəfər qeydiyyata gələn və 22 nəfər yeni doğulanlar olmuşdur. 7 nəfər rəhmətə gedən, 7 nəfər isə qeyddən çıxanlar olmuşdur. 1490 nəfər əhalidən cəmi 1236 nəfər aylıq yeməkxərci alan ailələrdir.

Nümayəndəlik üzrə ailə təsərrüfatlarında olan mal-qaranın uçotunun aparılması üçün 3 nəfərdən ibarət sayıcı komissiya üzvü seçilmişdir. Komissiya tərəfindən aparılmış son uçota əsasən 01 yanvar 2018-ci il tarixə şəxsi təsərrüfatlarda 212 baş malqara o cümlədən, 76 baş sagmal inək. 2457 baş xırda buynuzlu qoyun-keçi və 6550 müxtəlif ev quşları qeydə alınmışdır. Kənd əhalisi müxtəlif sahələrdə əldə etdiyi nailiyyətləri özləri üçün kifayət bilməyərək daha da fəal olmağa səy göstərirlər.



Cocuq Mərcanlı kənd ərazi nümayəndəliyi üzrə 1 nəfər Böyük Vətən Müharibəsi Qəhrəmanı, 6 şəhid, 4 nəfər isə Qarabağ əlili vardır ki, bu insanlara da hər zaman böyük qayğı və diqqət göstərilməkdədir.

”Yerli İcra Hakimiyyəti haqqında Əsasnamə”nin 5.1.8 maddəsində göstərildiyi kimi nümayəndəlik olaraq qarşımızda duran əsas vəzifələrin dolğun və operativ şəkildə həll olunması üçün əlimizdən gəldiyi qədər çalışırıq və hər zamanda çalışmağa davam edəcəyik. 2017-ci ildə nümayəndəliyə 155 şifahi müraciət etmişdir. Edilən müraciətlərə və vətəndaşların fikirlərinə hörmətlə yanaşılaraq onların həlli istiqamətlərində işlər aparılmışdır.



Xanlar müəllim çıxışına davam edərək dedi:

- C.Mərcanlı kənd İƏD üzrə nümayəndəliyi də öz fəaliyyətini ”Yerli İcra Hakimiyyəti haqqında Əsasnamə”nin 5.1.3 maddəsinin tələblərinə uyğun, perspektiv iş planı əsasında quraraq məcburi köçkünlərin məskunlaşdıqları Biləsuvar, Sumqayıt, Abşeron ərazisində məskunlaşan vətəndaşlarla görüşlər keçirmiş, onların problemlərilə yaxından tanış olmuşlar. Nümayəndəlik olaraq öhdələrinə düşən vəzifələri icra etişlər. Hüdudlarımızdan kənar olan problemləri isə lazimi istiqamətlər doğru yönləndirmişik.

2017-ci il ərzində bizlər nümayəndəlik olaraq qarşıya çıxan problemlərin anında və müsbət həll olunması üçün ”Yerli İcra Hakimiyyəti haqqında Əsasnamə”nin 5.1.4 maddəsinin tələbinə uyğun bir şəkildə daim ərazidə fəaliyyət göstərən dövlət qurumları ilə mütəmadi olaraq əlaqəli çalışmışdır. Statistika idarəsi, Səfərbərlik və hərbi xidmətə çağırış, Qeydiyyat İdarəsi, DSMF və digər idarə və qurumlarla əlaqələri vətəndaşların yaranmış bir sıra problemlərinin həllinə müsbət təsir etmişdir.

Vətəndaşlara xidmət etmək bizim vəzifə borcumuzdur. Müstəqil Azərbaycanımızın daha da çiçəklənməsi və əhalisinin yaxşı yaşaması üçün bundan sonra da öz vəzifə borcumuzu layiqincə yerinə yetirməyə çalışacağıq.

***

Hesabat məruzəsi ətrafında Cocuq Mərcanlı kənd sakini Oqtay Həziyev çıxış edərək, vaxtilə kənd ərazisinə yerləşən və işğal zamanı istifadəsiz hala düşmüş su kanalının yenidən bərpa olunaraq əhalinin istifadəsinə verilməsini də rayon rəhbərliyindən xahiş etdi.

Kənd sakini Cümşüd Qəhrəmanov onlara verilən pay torpağının bölgü istiqamətinin qaydaya uyğun olmadığını və yenidən bu bölgüyə baxılmasını rayon rəhbərliyindən xahiş etdi, kənd sakinlərinin ayılıq çörəkpulu müavinətinin vaxtında və problemsiz şəkildə alınması üçün kəndin ərazisində bankomatın yerləşdirilməsilə bağlı təklif irəli sürdü.

Bədəl Bədəlov da həmkəndlilərinin fikirlərinə dəstək olaraq hal-hazırki problemlərdən birinin həyətyanı və pay torpaqlarının suvarılması üçün su kanalının əhalinin istifadəsinə verilməsini vurğuladı, bölünmüş pay torpaqlarına görə rayon rəhbərliyinə öz təşəkkürünü bildirdi.

Sonda RİH başçısı Kamal Həsənov sakinlərinin üzləşdiyi problem və çətinliklərin aradan qaldırılması və bu istiqamətdə işlərin görüləcəyini və aidiyyatı qurumlara imkan çərçivəsində vətəndaşların problemlərinin həlli istiqamətində göstərişlər veriləcəyini söylədi. Kənd sakinlərinin ona ünvanlanmış suallarını cavablandırdı.

O, bir zamanlar düşmən tapdağı nəticəsində viranəyə dönmüş Cocuq Mərcanlının bu gün şəhər tipli gözəl bir qəsəbəyə çevrilməsində dövlət başçımız cənab İlham Əliyevin danılmaz rolunu qətiyyətlə vurğuladı, kəndə göstərilən diqqət və qayğının bundan sonra da davam edəcəyini söylədi.

**“Xudafərin”**

# Ərazi nümayəndəliklərinin hesabatları




Yanvarın 22-də Qaradağ rayon Müşfiqabad qəsəbəsində fəaliyyət göstərən akademik M.Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbinin iclas salonunda Cəbrayıl rayon İcra Hakimiyyətinin Cəbrayıl şəhəri üzrə inzibati ərazi dairəsi və Şükürbəyli kənd inzibati ərazi dairəsi nümayəndələrinin 2017-ci ildə görülmüş işlərin yekununa həsr olunmuş hesabat yığıncaqları keçirilmişdir.

RİH başçısı K.Həsənov, Cəbrayıl RİHB-nın birinci müavini Arif Fərzəliyev, Cəbrayıl rayon Təhsil Şöbəsinin müdiri Validə Həsənova və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən toplantıda Cəbrayıl şəhəri üzrə İƏD nümayəndəsi Zahid Hüseynovun məruzəsi dinlənilmişdi. Zahid müəllim cari ildə görülən işlərlə bağlı danışaraq qeyd etdi ki, ötən illərdə olduğu kimi 2017-cı ildə də şəhər inzibati ərazi dairəsi nümayəndəliyinin kollektivi öz işlərini tələb olunan səviyyədə qurmağa çalışmışdır. Belə ki yeni ilin əvvəlindən hər il olduğu kimi Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 6 iyun 2012-ci ildə qəbul etdiyi ” Yerli İcra Hakimiyyəti Haqqında Əsasnamənin” 5.1.6 maddəsinin tələbinə uyğun olaraq

1.İllik iş planı tərtib edilmiş

2.Şəhər inzibati ərazi dairəsi nümayəndəliyi üzrə əhalinin adlı siyahısı müvafiq göstərişlərə uyğun olaraq dəqiqləşdirilmiş

3.Nümayəndəlik üzrə çörək pulu müavinəti alanlar haqqında məlumatlar və sənədlər tələb olunan qaydada hazırlanıb hər ay icra hakimiyyətinə təqdim edilmiş

4.Əhalinin hərəkəti və məşğuliyyəti barədə məlumatlar müvafiq forma əsasında hazırlanaraq rayon İH-nə və statistika idarəsinə təqdim edilmiş.

5.2002-ci il təvəllüdlü çağırış yaşlı oğlanların siyahısı və digər sənədlərlə birlikdə lazım olan formada səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidmətinin Cəbrayıl rayon bölməsinə təqdim edilmişdir.

Bütövlükdə nümayəndəlik əhalisinin problemlərinin vaxtında həll edilməsini ”Yerli İcra Hakimiyyəti haqqında əsasnamənin 5.1.8 maddəsinə əsasən nümayəndəlik qarşısında duran vəzifənin dolğun yerinə yetirilməsi üçün, başqa sözlə vətəndaşların qəbulunun həyata keçirilməsi, onların ərizə və şikayətlərinə vaxtında baxılması,lazımi tədbirlərin görülməsi, vətəndaşların məlumatlandırılması məqsədi ilə nümayəndəlikdə, lazımi kitablar açılmışdır. 2017-ci ildə nümayəndəlikdə 425-ə yaxın vətəndaş şifahi qəbulda olmuş,müxtəlif məsələlərlə bağlı müraciət etmiş,onların müraciəti demək olar ki,müsbət həll olunmuşdur.

Ərazi nümayəndəsi çıxışının sonunda Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq üzərinə düşən vəzifələri yerinə yetirməklə bundan sonra da xalqımıza və dövlətimizə layiqincə xidmət edəcəyini vəd etdi.



Cəbrayıl şəhər sakinləri Rasim Məmmədov, Şəlalə Qasımova, Məlahət Qəhrəmanova, Elmira Əliyeva çıxışlarında nümayəndəliyin ötən ildəki fəaliyyətini kafi qiymətləndirib, arzu və təkliflərini bildirdilər.

Sonda rayon İcra Hakimiyyətinin başçısı cənab Kamal Həsənov çıxış etdi, səslənən fikirlərə münasibətini bildirib, nümayəndəliyin işini qənaətbəxş səviyyədə dəyərləndirdi.

***

Cəbrayıl RİHB-nın Şükürbəyli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nəriman Əsədov 2017-ci ilin yekunlarına həsr olunmuş hesabat məruzəsində nəzərə çatdırmışdır ki, 2017-ci ildə də Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 06 iyun 2012-ci ildə təsdiq edilmiş ”Yerli İcra Hakimiyyəti Haqqında Əsasnamə”nin 5-1.6 maddəsinin tələbinə uyğun olaraq nümayəndəlik üzrə əhalinin uçotu, siyahısı, müvəqqəti məskunlaşdıqları ünvanlar bir daha dəqiqləşdirilmiş, əhalinin adbaad siyahısı tərtib edilmiş, təsərrüfatbaşına kitablarda müvafiq düzəlişlər edilmişdir. Vətəndaşlara veriləcək yemək xərci müavinətlərinin vaxtında və təlimata uyğun verilməsini təmin etmək üçün lazimi tədbirlər görülmüş və görülməkdədir. Əhalinin məcburi köçkün vəziyyətində yaşadığını daim diqqət mərkəzində saxlayan nümayəndəliyimiz büdcədən maliyyələşən idarə və təşkilatlarda çalışan, lakin özündən asılı olmayaraq iş yerlərini itirmiş, hazırda orta aylıq əmək haqqı alan vətəndaşlarımızın əmək haqlarının vaxtında almalarının təmin olunması üçün lazimi sənədlərin toplanıb vaxtında Maliyyə şöbəsinə təqdim etməyə çalışmışlar.

Nümayəndəlik üzrə 12 şəhid, 1 itkin ailəsi vardır ki, onlara da daim diqqət və qayğı ilə yanaşılmış, problemlərinin vaxtında, tez və müsbət həllinə imkan daxilində səy göstərilmiş, rayon rəhbərliyi xətti ilə bu ailələrə müntəzəm maddi yardımlar edilmişdir. Lakin obyektiv səbəblərdən regionlarda məskunlaşmış bəzi imkansız ailələrlə əlaqə saxlaya bilməmişik.

Çalışacağıq ki, bundan sonra da işlərimizi günün tələbləri səviyyəsində quraq. Müstəqil Azərbaycan Respublikasının daha da qüvvətlənməsi və qüdrətli dövlətə çevrilməsi naminə rayon İcra Hakimiyyəti tərəfindən verilmiş tapşırıqların vaxtında və layiqincə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarığımızı səfərbər edəecək, üzərimizə düşən vəzifələri vaxtında və layiqincə yerinə yetirəcəyik.

Nümayəndəliyin vətəndaşları Şıxalıağalı kənd sakini Əbil Vəliyev, Kimya Məmmədova, Vahid Allahverdiyev və başqaları çıxış edərək 2017-ci ildə görülmüş işləri qənaətbəxş hesab etdilər.

Sonda Rayon İcra Hakimiyyətinin Başçısı K.Həsənov məcburi köçkünlərin problemlərinin həmişə diqqət mərkəzində olmasından danışdı, səsləndirilən məruzə və çıxışlara münasibət bildirərək nümayəndəliyin gələcək fəaliyyətinə uğurlar arzuladı.

**“Xudafərin”**

# 100 yaşlı veteranla görüş



Cəbrayıl rayon İcra Hakimiyyətinin Bakı şəhərindəki nümayəndəliyində rayonun Balyand kənd sakini I qrup Böyük Vətən müharibəsi əlili 100 yaşlı Əliyev Famil Abbas oğlu ilə görüş keçirilmişdir. Ali təhsilli tarix müəllimi olan Famil Abbas oğlu uzun müddət məktəb direktoru, həmçinin Balyand kənd Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri kimi rəhbər və məsul vəzifələrdə çalışıb.

Görüşdə Famil müəllim gənclər üçün örnək olan döyüş yolundan maraqlı söhbətlər etdi. II Dünya müharibəsi veteranı kimi keçib gəlmiş oldu keşməkeşli ömür yolundan səhifələri xatirələr şəklində vərəqlədi.



Görüşdə 100 yaşlı veteran Famil Əliyevin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılması müəyyən edildi.

Qeyd edək ki, görüşdə iştirak edən RİH başçısının I müavini, YAP rayon təşkilatının sədri Arif Fərzəliyev, RİH-nin Balyand kənd İƏD üzrə nümayəndəsi Əbülfət Həmzəyev, rayon veteranlar şurasının sədri Həsən Əhmədov və qocaman veteranın yaxınları çıxış edib, Famil müəllimin keçdiyi ləyaqətli ömür yolundan danışdılar və ona uzun ömür, cansağlığı arzuladılar.

**İsmayıl İsmayılov**

# YAP-ın 25 illiyi münasibətilə ağacəkmə aksiyası



Yanvarın 16-da və 30-da Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatının fəalları Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyinə həsr olunmuş ağacəkmə aksiyası keçirdilər.

Aksiyada Cəbrayıl rayon İcra Hakimiyyətinin, YAP Cəbrayıl rayon təşkilatının İdarə heyətinin üzvləri, partiya fəalları və ictimaiyyət nümayəndələri fəal iştirak edirdilər.

Aksiya çərçivəsində 1000-dən çox müxtəlif növ ağaclar əkilərək suvarıldı.

Gələcəkdə də bu cür aksiyaların davam etdirilməsi nəzərdə tutulmuşdur.

**"Xudafərin"**

# Dəyirmi masa keçirildi

Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatının Bakı şəhərindəki qərargahında Ümummilli Lider Heydər Əliyevin 95 ilik yubileyi, 2 fevral Gənclər günü və 2018-ci il Azərbaycan Xalq Cümhuriyyəti ili elan edilməsi mövzularında dəyirmi masa keçirilib.

YAP Cəbrayıl rayon təşkilatının sədri, Cəbrayıl RİHB-nın I müavini cənab Arif Fərzəliyev tədbirdə çıxış edərək bildirdi ki, dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.







Daha sonra Arif müəllim gəncləri 2 fevral Gənclər günü münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Qeyd etdi ki, Ulu Öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsas qoyuldu. 1994-cü ildə dövlət gənclər siyasətini icra edən Gənclər və İdman Nazirliyi yaradılıdı. 1996-cı il 2 fevral tarixində məhz Ulu Öndər Heydər Əliyev dəstəyi ilə gənclərin 1-ci forumu keçirildi. 1997-ci ildən isə Prezident sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər günü kimi qeyd olunmağını qeyd elədi.

Həmçinin 1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş verdiyini, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu bildirərək qeyd etdi ki, cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş , xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin yatarmışdır.

Natiq çıxışına davam edərək bildirdi ki, 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamının çox böyük ictimai-mənəvi əhəmiyyətinin olduğunu vurğulayaraq gənc nəsildə istiqlalımız uğrunda mübarizəni daha da artıracaq və onların vətənpərvər ruhda tərbiyəsi işinə öz töhfəsini verəcəkdir.

Tədbirdə YAP Cəbrayıl rayon Təşkilatı Gənclər Birliyinin sədr əvəzi Əli Məmmədli, YAP Cəbrayıl rayon Təşkilatı Gənclər Birliyinin üzvləri Rəşad Quliyev , Xəyyam Ərəbov, Vüqar Hacıyev ,YAP Cəbrayıl rayon Təşkilatının idarə heyətinin üzvü Anna Əliyeva və YAP Cəbrayıl rayon Təşkilatı Gənclər və Qaçqınlar şurasının üzvü Məlahət Əzizova çıxış etdilər.

YAP Cəbrayıl rayon təşkilatının sədri, Cəbrayıl RİHB-nın I müavini Arif Fərzəliyev yığıncaqda yekun nitqi söylədi.

**"Xudafərin"**

# COCUQ MƏRCANLIDAN XƏBƏRLƏR

## Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası Cocuq Mərcanlıda

Yanvar ayının 6-da akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası Cəbrayıl rayonu Cocuq Mərcanlı kəndində humanitar aksiya keçirib.

Tədbirdə çıxış edən akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin elmi-təşkilat bölməsinin rəhbəri, tibb üzrə fəlsəfə doktoru Yazgül Abdiyeva Səyyar Klinikanın Azərbaycanın rayon və şəhərlərində həyata keçirdiyi tibbi aksiyalar haqqında məlumat verərək bildirib ki, növbəti aksiya bu gün Cəbrayıl rayonun Cocuq Mərcanlı kəndində keçirilir.



Prezident İlham Əliyevin işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında Sərəncamı xüsusi əhəmiyyətə malikdir və bu işdə hər kəsin öz üzərinə düşən işi yerinə yetirməsi vacibdir. Bu məqsədlə Mərkəzin əməkdaşları və yüksək texnologiyalarla təchiz olunmuş Səyyar Klinika buraya gələrək yerli əhaliyə oftalmoloji-tibbi xidmət göstərmək niyyətindədir. Məqsəd pasiyentlərin səhhəti ilə bağlı problemlərin həll olunmasına kömək göstərməkdir. Bununla yanaşı tibb işçiləri pasiyentlərin göz xəstəlikləri ilə bağlı monitorinqlər apararaq əldə edilən nəticələri müzakirə edib yerindəcə həllinə çalışacaqlar".

Cocuq Mərcanlı kəndində keçirilən aksiya zamanı 120-dən çox vətəndaş Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən müayinə olundu.

## Cocuq Mərcanlıda yem emalı müəssisəsi istifadəyə verilib



Cocuq Mərcanlı kəndində yem emalı müəssisəsi fəaliyyətə başlayıb.

Fevral ayının 2-də bununla bağlı İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə nazir müavini Sahib Məmmədov Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, regionların tarazlı və davamlı inkişafı sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verib, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması və sahibkarlığın inkişafının uğurlu iqtisadi siyasətin prioritet istiqamətlərindən olduğunu vurğulayıb. Qeyd edilib ki, dövlət başçısının yeni həyat bəxş etdiyi və "Böyük Qayıdış"ın rəmzinə çevrilən Cocuq Mərcanlı kəndində icma əsaslı biznesyönümlü layihələrin icrası, o cümlədən yem emalı müəssisəsinin istifadəyə verilməsi Cocuq Mərcanlının sosial-iqtisadi inkişafında və məşğulluğun təmin olunmasında əhəmiyyətli addımdır.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Cocuq Mərcanlıda həyata keçirilən işlər barədə məlumat verib və yem emalı müəssisəsinin istifadəyə verilməsinin kənd sakinlərinin heyvandarlıq və bitkiçilik sahəsində fəaliyyətinin genişlənməsinə şərait yaradacağını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Cocuq Mərcanlı sakinləri göstərilən böyük diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Hökuməti və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi tərəfindən birgə maliyyələşdirilən "Sosial-iqtisadi inkişaf fəaliyyəti" layihəsi (SEDA) çərçivəsində tikilmiş yem emalı müəssisəsində yem emalı üçün istehsal sahəsi və anbar inşa olunub. Müəssisədə hər birinin gücü saatda 2 ton olan toxum təmizləyən, yem üyüdən, ot doğrayan avadanlıqlar quraşdırılıb, yeni iş yerləri açılıb.

## COCUQ MƏRCANLIYA GEDƏN YOL YENİDƏN QURULUB

Cənub-qərb magistral avtomobil yolunun tərkib hissəsinə aid olan Hacıqabul -Bəhramtəpə - Mincivan avtomobil yolunun 64 km - lik hissəsi yenidən qurulub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, aparılan işlər yekunlaşdırılıb.

Belə ki, Beyləqan və Füzuli rayonlarından keçən yolda tikinti quraşdırma işləri iki hissədən ibarət olmaqla həyata keçirilib. I hissə 113-138 km arası məsafəni, II hissə isə 138-177 km məsafəni əhatə edir.



Ümumilikdə yolun 500 min m2-dən çox hissəsinə 2 qat olmaqla 12 sm qalınlığında asfalt-beton örtüyü döşənib.

Yolun üzərində yerləşən 9 ədəd 2 aşırımlı, uzunluqları 24-36 metr olan avtomobil körpülərinin təmiri də yekunlaşdırılıb.

Magistral yolun 64 km-lik hissəsinin yenidən qurulması ilə artıq Bakı şəhərindən istər Beyləqan və Füzuli rayonlarının yol boyu yerləşən yaşayış məntəqələrinə, istərsə də işğaldan azad olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə rahat, maneəsiz və təhlükəsiz şəkildə gediş-gəliş təmin olunub, yük və sərnişin daşıması asanlaşıb.

**Cocuq Mərcanlıdan xəbərləri hazırladı:**
**HİDAYƏT SƏFƏRLİ**
**"Xudafərin" qəzeti baş redaktorunun müavini**

# Qədimdən gələn ənənə: xalq-hakimiyyət-ordu birliyi

İstər əski mifoloji baxışlarımıza, istərsə də qədim (eləcə də müasir) tariximizə diqqətlə nəzər yetirsək, biz xalq-hakimiyyət-ordu anlayışlarının triada şəklində bir-birindən ayrılmaz olduğunu təsdiq edərik. Bu, heç də təsadüfi məsələ deyil, əksinə, güclü dövlət və dövlətçilik qurmağın təməl prinsipidir. Əgər vətənimizi azad və sərhədlərimizin toxunulmaz olmasını görmək istəyiriksə, mütləq və mütləq xalqın hakimiyyətlə (hökmdarla) və ordu ilə sıx birliyi olmalıdır. Məhz belə bir zərurəti aydınlığı ilə bilən və görən uzaqgörən siyasətçi, xalqımızın Ümummilli lideri Heydər Əliyev orduda xidmətin vacibliyini, ordu quruculuğunun mühüm amil olmasını diqqətə çatdıraraq deyirdi:

"Ordu xidməti çox böyük fədakarlıq tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənci öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib sonra tərxis olunan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur". (Yusif Qazıyev, Heydər Əliyev ideyaları əbədiyaşardır, Bakı, "MBM", 2013, səh.52).

"Heydər Əliyev - xalq, xalq - Heydər Əliyev birliyi əbədidir!" şüarı artıq bu gün dillər əzbəridir və Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr zaman intervalı baxımından yaxın tarixi keçmişimizdir. Yuxarıdakı deviz də xalqla hakimiyyətin bir yerdə olmasının əksetdiricisidir. Xalqımızın dahi oğlu və eyni zamanda hakimiyyətin təmsilçisi kimi Heydər Əliyev qüdrətli ordu amilini də xalq-hakimiyyət birliyinin ayrılmaz tərkib hissəsi kimi görüb qiymətləndirirdi. Buna görə də ordudakı xidməti böyük fədakarlıq hesab edərək, Azərbaycan gəncinin orduda xidmətini şərəfli borc kimi vacib hal hesab edirdi. Eyni zamanda bir incə məqamı da xüsusi önə çəkib vurğulayırdı ki, xidməti borcunu layiqincə yerinə yetirən və hərbi borcunu ödəyib qurtaran kəs "ən dəyərli insan hesab olunur". Bu qiymət ordumuza, ordumuzun sıralarında qulluq etmiş hər bir sıravi əsgərə ölkə rəhbərinin böyük diqqət və qayğısı kimi düşünülməli, eyni zamanda xalqın hər bir vətən fədaisi olan övladına rəhbər məhəbbəti kimi xarakterizə olunmalıdır. Belə ki, ordu sıralarına yollanan gənclər xəyali, göydəndüşmə adamlar deyillər, o gənclər xalqımızın, vətənimizin övladlarıdırlar. Bu mənada həm də o gənclər xalqımızı təmsil etməklə hakimiyyət-xalq anlayışlarının birgəliyini ifadə edir, ordu sıralarına qoşulmaqla isə hakimiyyət-xalq-ordu triadasının vahid bir nöqtədə birləşdiyini nümayiş etdirirlər. Ordudan tərxis olunan gənclər isə yenidən H.Əliyevin təbirincə desək, ən dəyərli insan kimi mülki həyata qədəm qoymaqla, bir daha hakimiyyət-xalq müstəvisində təzədən qərarlaşırlar.

Göründüyü kimi, qədim ənənədən gələn xalq-hökmdar-ordu birliyi xalqımızın böyük oğlu, Ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətində də başlıca prioritet xətt olaraq davam və inkişaf etdirilmişdir. Elə ənənədən gələn bu birliyi qoruduğu və yaşatdığı, uğurla inkişaf etdirdiyi üçün də müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı kimi tarixdə öz şərəfli imzasını qoydu. Ölkə prezidenti İlham Əliyev cənablarının dediyi kimi, "1993-cü ildən 2003-cü ilə qədər, on il ərzində Azərbaycanın keçdiyi inkişaf, quruculuq yolu bir daha göstərdi ki, liderdən, onun apardığı siyasətdən çox şey asılıdır" (İqtibaslar. Azərbaycan Prezidenti İlham Əliyev dövlət quruculuğunun əsas istiqamətləri haqqında. Bakı, Azer-Globe İctimai və Siyasi Araşdırmalar İnstitutu, 2011. səh. 10).

Məhz Ümummilli liderin apardığı siyasət, tarixi ənənədən gələn xalq-hakimiyyət-ordu birliyi siyasətinin uğurla dövlətçilik kursuna yeniliklə tətbiqi və yeridilməsi öz uğurlu nəticəsini verdi.

Qeyd edək ki, ordu quruculuğu məsələsi Heydər Əliyev ideyalarının davamı kimi ölkəmizin prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin də önəm verdiyi başlıca amildir.

Heydər Əliyev adına Ali Hərbi Məktəbin 27 iyun 2005-ci ildəki buraxılış mərasimində səsləndirdiyi çıxışında da biz bunun əyani təzahürünü görürük:

"Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır" (səh.181).

Göründüyü kimi, burada ölkə başçısının dilindən birbaşa olaraq ordunun ölkənin çox vacib atributu, önəmli bir rəmz olduğu vurğulanır. Bu isə həm də onu ifadə edir ki, dövlətin, ölkənin mövcudluğu, varlığı ordu amili ilə sıx bağlıdır. Eyni zamanda yuxarıdakı çıxışda bir önəmli məsələyə də xüsusi ştrixlə toxunulmuşdur ki, o məsələni də diqqətdən yayındırmaq olmaz. Bu, müharibə şəraitində yaşamağı xatırlatmaqla bağlı məqamdır.

İnkarolunmaz bir həqiqətdir ki, xüsusən də müharibə zamanlarında müharibə aparan ölkələrin dövlət başçıları öz üzərlərinə Silahlı Qüvvələrin Ali Baş Komandanı olmaq məsuliyyətini də götürmüşlər. 1941-1945-ci illərin Böyük Vətən Müharibəsində İ.V.Stalin Sov.İKP MK-nın Baş katibi vəzifəsi ilə yanaşı SSRİ Müdafiə Naziri vəzifəsini də icra edirdi və Sovet ordusunun rəşadətli əsgərləri "Vətən uğrunda", "Stalin uğrunda" şüarları ilə ölüm-dirim savaşına atılırdılar. Ölkəmizin hazırkı müharibə şəraitində də dövlətimizin başçısı Respublika Prezidenti kimi ali vəzifə ilə yanaşı Silahlı Qüvvələrimizin Ali Baş Komandanı missiyasını da şərəflə yerinə yetirir. Yaxşı xatırlayırıq ki, atəşkəs rejimindən qabaqkı dövrlərdə cəbhə həyatı ilə bağlı efirə yayımlanan telereportajlarda əsgərlərimiz tankın üzərinə "Vətən uğrunda - Azərbaycan uğrunda!" şüarı ilə yanaşı "Heydər Əliyev uğrunda irəli!" devizini də yazıb yüksək qələbə əzmi ilə döyüşlərə yollanırdılar. Bütün bunlar nəyin göstəricisidir? Hakimiyyət-xalq-ordu birliyinin yenilməz və sarsılmaz gücünü və bu gücə olan inamı nümayiş etdirirdi. Bu, həm də qədimdən gələn belə bir ənənəmizə varisliyimizi göstərirdi. Bugünkü müharibə şəraitində də dövlətimizin başçısı İlham Əliyev Silahlı Qüvvələrimizin Ali Baş Komandanı kimi məsul vəzifəni üzərinə götürməklə hakimiyyətlə ordu birliyinin qarantı kimi fəaliyyət göstərir. 24 iyun 2010-cu ildə Silahlı Qüvvələrin birgə əməliyyat-taktiki təlimində hərbçilər qarşısındakı çıxışı zamanı biz bir daha buna əmin oluruq:

"Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Döyüş qabiliyyəti, peşəkarlıq, vətənpərvərlik ruhu, maddi-texniki bazanın möhkəmlənməsi, orduya dövlət tərəfindən göstərilən diqqət və hörmət-bütün bu amillər bizə imkan verəcək ki, doğma torpaqlarımızı işğalçılardan azad edək" (səh.183).

Bu sitatda orduya göstərilən dövlət qayğısı ifadəsinin altında çox şeylər yatır: yəni ordu ilə dövlət nümayəndəsi-hakimiyyət təmsilçisi yekdildir, bundan başqa, əsgərdəki döyüş qabiliyyətinin, ordudakı maddi-texniki bazanın yüksək səviyyədə olması torpaqlarımızın - vətənimizin işğaldan azad edilməsində, ərazi bütövlüyünün bərpasında mühüm şərtlər kimi göstərilir. Lakin ölkə başçısının - Ali Baş Komandanın bu çıxışındakı bir incə məqamın üstündə xüsusi dayanmaq gərəkdir. Bu, prezidentin yuxarıda göstərdiyi vətənpərvərlik ruhu məsələsidir. Bəli, orduya təkcə dövlətin maddi-texniki dəstəyi məsələsini qabartmaqla probleme birtərəfli yanaşmaq olmaz. Xalq kütləsi içərisindən orduya yollananlarda, orduda xidmət edən döyüşçülərdə döyüşmək, qəhrəmanlıq göstərmək əzmi yüksək səviyyədə olmalıdır. Bütün bunlar isə, hər şeydən öncə, vətəndaşın və əsgərin iç duyğusundan gəlməli, ürəyinin, vicdanının səsi-harayı onu düşmən üzərinə qalibiyyət cənginə aparmalıdır. Bunun üçünsə Ali Baş Komandanın yuxarıdakı fikirlərindən də səsləndirildiyi kimi, vətənpərvərlik ruhunun güclü olmasıdır. Xalq-hökmdar-ordu triada olaraq vahid bir komandanlıq şəklində, mütəşəkkil və əzmkar qüvvə kimi birlik nümayiş etdirməlidir. Prezidentin öz dövlətinə, ordusuna hörmət və sayğısı, ordunun öz ölkəsinə sədaqətlə xidməti, xalqın övladlarının ürəyində vətənpərvərlik coşğusu sönməz məşəl kimi alovlanmalı, vahid bir amal uğrunda "üçü birində", "biri də üçündə" eyni mən olaraq çıxış etməlidir.

Xatırlatmaq yerinə düşər ki, məhz XX əsrin əvvəllərində AXC dövründə də ölkəmizi yadelli-yaddilli düşmənlərdən qorumaq uğrunda əhalidə vətənpərvərlik coşqusunun oyanışı məqsədilə kütləvi miqyaslı dövlət əhəmiyyətli ideoloji addımlar atılmışdı və bütün bu mənəvi amillər ölkəmizin taleyinə öz müsbət nəticəsini göstərmişdi. Yaxın tarixi keçmişimizdə baş vermiş bu kimi proseslərin yenidən təkrarlanması, dövlət siyasəti xətti kimi yenidən canlanması çox müsbət bir haldır. Fikrimizə bir qədər aydınlıq gətirmək üçün həmin tarixi dövrə həsr olunmuş Nizami adına Ədəbiyyat İnstitutu Elmi Şurasının çap elətdirdiyi "Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəni quruculuq)", (Bakı- "Qoliot Qkup" QSC-2009) kitabından müəyyən parçaya diqqət verək:

"Həmin günlərdə Bakıda hakimiyyət kommunarların əlində idi. Lakin bir tərəfdən daxili-siyasi ziddiyyət, xalqımıza qarşı milli şovinizmdən doğan qüsurlu, məkrli fəaliyyət proqramı və üsulu, digər tərəfdən də Denikinin iddiaları və beynəlxalq qüvvələrin Bakı neftinə olan maraqları vəziyyəti daha da kəskinləşdirir, sosial və mənəvi dayaqları zəif olub, ancaq qan gölü üzərində dayanmağa çalışan Bakı Kommunasının süqutunu labüdləşdirirdi. Odur ki, kommuna hökumətinin özünü xilasetmə cəhdləri puça çıxdı. Qısa müddət ərzində başına gələn müsibətlərdən düzgün nəticə çıxarda bilən Azərbaycan xalqı özünün milli və siyasi maraqlarına yad olan qüvvələrdən üz döndərdi. Üstəlik, kommunarların özlərinə müttəfiq hesab etdikləri Biçeraxov və erməni-daşnak dəstələri Bakıya istiqamət götürən Qafqaz İslam Ordusunun vahiməsi qarşısında dayana bilməyib qaçdılar. Nəticədə iyunun axırlarında kommuna istefaya məcbur oldu. Bakıda hakimiyyət "Sentrokaspi" hökuməti kimi tanınan və yenə Azərbaycana tamamilə yad olan qüvvələrin əlinə keçdi.

Məhz Azərbaycana, Azərbaycan xalqının milli mənafelərinə ögey münasibət bəsləyib, başlıca dayağı xaricdə, xarici qüvvələrin şirin vədlərində axtarmalarının nəticəsində "Sentrokaspi"çilərin də hakimiyyət ömrü çox qısa oldu. Onlar özlərinə yerli zəmində dayaq tapa bilmədilər. Sentrokaspi diktaturasının hakimiyyət başında olduğu günlərdə - avqustun 27-də Sovet Rusiyası ilə Almaniya arasında bağlanan müqavilənin 14-cü maddəsinə görə, Almaniya Bakı quberniyasının türklər tərəfindən tutulmasına yol verməyəcək, əvəzində Rusiya burada neft hasilatını təmin edərək, çıxarılan məhsulun 4-də 1-ni, ya da xüsusi aylıq faizini Almaniyaya verəcəkdi.

Əlbəttə, Azərbaycan hökuməti onun xəbəri olmadan bağlanan bu həyasız müqaviləyə qarşı nota verərək bildirmişdi ki, "Bakısız Azərbaycan - başsız bədəndir".

İngilislərin Bakıya çağırılması da Sentrokaspi diktaturasını xilas edə bilmədi, sentyabrın 15-də Bakı azad edildi və Azərbaycan hökuməti öz qanuni paytaxtına sahib oldu (səh. 198-199).

Bu tarixi ekskurs həmin dövrdə hakimiyyət-xalq (eləcə də ordu) birliyinin pozulması səbəbindən-daxili siyasi ziddiyyət ucbatından Bakı Kommunası hökumətinin süquta uğradığını əyani şəkildə açıb göstərir. Həmçinin Sentrokaspi diktatura hakimiyyəti də "yerli zəmində dayaq tapa bilmədiyindən" - xalqla həmrəy olmadığından, milli-mənəvi dəyərlərə ögey münasibətin nəticəsində və içdən-xalqdan yox, kənardan-xarici qüvvələrdən dəstək ummaq xülyalarının nəticəsində iflasa uğrayır. Deməli, "Sentrokaspi"çilərin də, kommunarların da hakimiyyətlərinin tənəzzülə uğramalarının başlıca səbəbi hakimiyyət və xalq birliyinin olmamasından idi; hakimiyyət və xalq (ordu) arasındakı uçurum bir daha "Azərbaycan xalqının milli və siyasi maraqlarına yad olan qüvvədən" - hakim qüvvədən imtina ilə nəticələndi ki, bu da təbii idi. Çünki xalqımızın normal cəmiyyət düsturu hakimiyyət və xalq (ordu) birliyi üstündə hesablanıbdı. Bu düstura hesablanmayan hakimiyyət də, siyasət də sonda məhvə məhkumdur. Bunun da nəticəsidir ki, xalq iradəsinin təmsilçisi olan Qafqaz İslam Ordusu qarşısında xalqa yabançı olan hakim qüvvələr məğlub olub geri çəkilirlər. Bəli, bu, nisbətən yaxın tarixin ibrət dərsidir ki, hakimiyyət-xalq-ordu bir olmalı, vahid bir mövqedən çıxış etməli, yekdil bir məsləkə qulluq etməlidir. Bu birlik əbədi olmalıdır, əks təqdirdə hakimiyyət məhvə doğru sürüklənməlidir.

Akademik Nizami Cəfərovun qeyd etdiyi kimi, "Qədim türklərdə dövlət qurmaq, ictimai-siyasi qayda-qanun yaratmaq marağının az qala bir instinkt, refleks olduğu məlumdur" ("Ədəbiyyatın müstəqilliyindən müstəqilliyin ədəbiyyatına". Bakı, "Elm və təhsil", 2016, səh.289).

Burada, əlbəttə, ictimai-siyasi qayda-qanun deyildikdə, dövlətdən söhbət gedir və o qayda-qanunlar da məhz dövlətin (hakimiyyətin) nizami ordusu ilə xalqın mütəşəkkil vəhdətindən təşkilindən ibarətdir.

Bəli, yuxarıda qeyd etdiyim kimi, ordunun maddi-texniki təchizatının yüksək səviyyədə olması ilə yanaşı ordunun canlı qüvvəsini təşkil edən döyüşçülərdə də döyüş əhval-ruhiyyəsinin, düşmənlərə qarşı əzmli mübarizə hissinin formalaşdırılması çox zəruri məsələdir. Bunun üçün daxili coşqu hissi, döyüşə həvəsləndirmə duyğusu hərəkətə gətirilməlidir, bunun daxili stimulverici qüvvəsi isə hərbi vətənpərvərlik ideyalarının təbliği və tərənnümünə gedib bağlanır. Əbəs deyildir ki, XX əsrin əvvəllərində Şərqdə ilk demokratik respublika kimi qurulmuş ADR də bu məsələyə ciddi önəm verərək, səfərbəredici tədbirlər həyata keçirmişdir: "Ölkədə və sosial-mənəvi şüurda baş verən proseslər ədəbi fikrin diqqət mərkəzində dayandı; bir tərəfdən qazanılmış milli istiqlaliyyətin dəyəri yüksək qiymətləndirilərək, xalqa onun əvəzedilməz müqəddəsliyi fikri təlqin edilir, bu nemətin qorunaraq əldə möhkəm saxlanılması və inkişaf etdirilməsi üçün hər kəs səfərbər olmağa səslənilir, düşmənlərin xaricdən və daxildən gözlənilən təhlükələri diqqətə çatdırılmaqla yanaşı, milli tarixi yaddaşa istinadən xalqın milli qürur, döyüşkənlik və qəhrəmanlıq duyğusu daha da alovlandırılır, orduya, orada xidmətə sevgi təlqin olunur, eyni zamanda qarşıda duran həlli vacib olan ölkədaxili məsələlər nəzərə çatdırılırdı. Buraya iqtisadi, mədəni, elmi, sosial hüquqi, ədəbi və s. sahələr daxil idi.

Azərbaycan xalqının soyqırım faciəsi, daşnak və bolşevik birləşmələrin bu işdə əlbirliyi, məruz qaldığı fəlakətlərin təsiri ilə müvəqqəti də olsa öləziyən ümidlərinin işıqlı gələcəyə inam və həyat eşqi ilə əvəz edilməsi məqsədi ilə ədəbi-ictimai fikrin axtarışları və uğurları da diqqəti cəlb edir. Bu işdə Qafqaz İslam Ordusu ilə birgə Azərbaycana göndərilən şair və publisistlər də özgün rol oynadılar. Milli ədəbi-ictimai fikir özünün türk qardaşlarının xilaskarlıq missiyasına laqeyd qalmadı; türkiyəli müəlliflərin əsərlərinə, bütövlükdə ümumtürk birliyinə dair əsərlər ədəbi ictimaiyyətin diqqətinə çatdırıldı. M.Hadi, A.Şaiq, Ümgülsüm, Ə.Cavad. Seyid Hüseyn, C.Cabbarlı, Əli Yusif, Gəncəli Davud, Məhəmməd Ümid Gəncəli, İbrahim Şakir, A.Qayıbov Nazir, M.B.Məhəmmədzadə və başqalarının yaradıcılığında türk ruhunun, türk dünyasının əzəmət və qüdrəti ilə yanaşı, onun gələcək tarixi taleyi ilə bağlı nigarançılıq dolu əsərlər də üzə çıxmağa başladı. Çünki I Dünya müharibəsində Antantanın qələbəsi ilə "Üçlər İttifaqı"nın nümayəndəsi kimi Türkiyə də ağır vəziyyətə düşdü və qalib tərəfin tələbinə əsasən öz qoşunlarını Qafqazdan geri çəkməli oldu.

Bununla belə, Türkiyə özünə qardaş saydığı Azərbaycan xalqına kifayət qədər kömək edə bilmişdi. Belə ki, Qafqaz İslam Ordusunun köməyi sayəsində azərbaycanlılar labüd qırğından və siyasi iflasdan xilas oldular. Ölkədə müəyyən qədər daxili sabitliyə, ordu quruculuğuna, sərhədlərimizin möhkəmləndirilməsinə və s. nail olundu. Paytaxt uğrunda aparılan mübarizə qələbə ilə bitdi". (səh. 199-200).

Göründüyü kimi, o dövrdə güclü nizami ordu (Qafqaz İslam Ordusu) ilə bahəm daxili mənəvi gücün təcəssümçüsü olan şair və publisist ordusu da qardaş Türkiyə tərəfindən ölkəmizə göndərilmişdi. Yəni təkcə hərbi güc olan döyüşən ordu ilə yox, həmçinin də ki, mənəvi güc - "milli tarixi yaddaşa istinadən xalqın milli qürur, döyüşkənlik və qəhrəmanlıq duyğusu" potensial qüvvə olaraq birgə hərəkətə gətirilməklə həlli vacib qələbə qazanıldı. Bu gücün hərəkətverici qüvvəsi isə əsas etibarı ilə ədiblər ordusundan təşkil olundu, ədəbi-ictimai fikir olaraq cəmiyyətdə vətənpərvərlik hisslərini şöləlləndirdi, xalqı vahid ideya ətrafında səfərbəredici birliyə çağırdı. Xalq (Vətən)-hakimiyyət-ordu vahid bir cəbhədə çıxış etməyə yönləndirildi, tarixi-mifoloji şüurdakı bu birliyi təzədən öz kosmik nizamında bərpa elətdirdi.

Bu gün bizim ordumuzun haqq ordusu olduğunu bütün dünyaya bəyan etməyimiz çox vacib məsələdir. Düşdüyümüz müharibə şəraitinin səbəbi Ermənistanın haqsız ərazi iddialarıdır və bunu tarixi dəlillərlə açıb göstərməklə, təbliğatımızı aparmalı və eyni zamanda bizim torpaqlarımızın müdafiəsi uğrunda olan haqq işimizi haqq ordusunun döyüşçüləri kimi əsgərlərimiz və mülki əhali arasında aparmaqla vətənpərvərlik ruhumuzu daha da coşdurmalıyıq. Coşqun bir əhvalla, haqqımızın müdafiəçisi olan haqlı tərəf kimi Vətənimizi yadellilərdən azad etməliyik.

"Qafqaz erməniləri dünya ölkələrindən qovulmuş qaçqınlardır. Onlar Qafqaza qədəm qoyduğu gündən Qafqaz xalqları narahatdır. Tarixi araşdırmalar göstərir ki, ermənilər Qafqazda heç vaxt dinc durmamışlar" cümlələri ilə başlayan "Müasir Ermənistan" yazısını Yusif Qazıyev "Erməni məsələsi. Yalanlar. Gerçəklər" ("Nurlar" NPM, 2009) kitabında aşağıdakı fakta istinad etməklə davam etdirir: "Erməni alimləri millətçiliklə zəhərləndiyindən öz uydurma iddialarını ermənipərəst Sovet rəhbərliyindən qəti şəkildə tələb etməkdən də çəkinmirdilər. Bu cəhətdən SSRİ Ali Sovet Rəyasət Heyətinin 1988-ci il 18 iyul tarixli iclasında Sovet dövlət başçısı M.S.Qorbaçov - erməni alimi S.A.Hambarsumyan dialoqu xüsusi maraq doğurur. Orada deyilirdi:

S.A.Hambarsumyan: - Kommunist, pedaqoq, rektor kimi bütün həqiqəti söyləməyi özümə borc bildim. Vəziyyət gərgindir...

M.S.Qorbaçov: "Ermənistanda yaşayan azərbaycanlıların sayı Dağlıq Qarabağdakı ermənilərin sayından az deyildir. İndi necə olsun, orada da Muxtar vilayətmi yaradaq?

Burada əsasən demoqrafiyanın, əhalinin tərkibinin necə dəyişməsinə istinad edilir. Bu mühüm amil kimi hətta müəyyən siyasətin nəticəsi olaraq da qələmə verilir. Deyin görək əsrin əvvəllərində Yerevanda azərbaycanlı əhali nə qədər idi?

S.A.Hambarsumyan: - Əsrin əvvəllərində, Yerevanda?

M.S.Qorbaçov: - Bəli.

S.A.Hambarsumyan: - Deməyə çətinlik çəkirəm.

M.S.Qorbaçov: - Siz bunu bilməlisiniz. Mən sizə xatırlada bilərəm - əsrin əvvəllərində Yerevanda azərbaycanlılar 83 faiz təşkil edirdi. İndi azərbaycanlılar neçə faizdir?

S.A.Hambarsumyan: - İndi olduqca azdır. Yəqin ki, bir faizdir.

M.S.Qorbaçov: - Bunu deməklə erməniləri təqsirləndirmək istəmirəm ki, onlar azərbaycanlıları sıxışdırıb çıxarmışlar. Görünür, hansısa proseslər isə baş vermişdir və ümumiyyətlə, bunları araşdırmaq lazımdır. Əgər biz hər rəqəmdən belə yapışsaq, bundan məkrli nəticələr çıxarsaq, bir-birimizə ittihamlar yağdırsaq, onda heç nəyə nail ola bilmərik. Siz ki alimsiniz! İnformasiyada dəqiq, həqiqəti söyləməkdə dəqiq olmaq lazımdır. Əgər bu, ancaq sizin həqiqətiniz və ya mənim həqiqətim olacaqdırsa, bu, hələ həqiqət deyildir. Lakin olmuş həqiqət də vardır. Əsrlər boyu ermənilər və azərbaycanlılar bu torpaqda yaşamışlar. Sizin üçün Dağlıq Qarabağ erməni millətinin beşiyi, necə deyərlər, dayaq nöqtələrindən biridir. Lakin Azərbaycanın bəstəkarları, bir çox başqa incəsənət xadimləri də axı Şuşadan, Qarabağdan çıxmışdır. Axı, insanların ürəklərini, ailələri, əsərləri beləcə asanlıqla, kotanla şumlayırmış kimi ayaq altına salıb şumlamaq olmaz". ("Kommunist" qəzeti, 20 iyul1988-ci il. N-170 (20638)).

SSRİ kimi nəhəng imperiyanın başçısı olan M.S.Qorbaçovun - hakimiyyət rəhbərinin həqiqətə bilərəkdən göz yumduğu səbəbindən və ermənilərin ədalətsiz, yalan iddialarına qətiyyətsizlik göstərməsi ucbatından Sovet dövləti nəticədə iflasa uğradı. Bir daha sübut olundu ki, yenə də hakimiyyətlə xalq (əhali) arasında mənəvi birlik harmoniyası pozulduqda, hakimiyyət də, hələ o hakimiyyətin təmsil olunduğu dövlət də - Vətən də (SSRİ adlı Vətən də!) süquta məhkum olur. Başqa sözlə, bizim milli düşüncəmizdə bir etalon olaraq mövcuq olmuş hakimiyyət-xalq-ordu birliyi arasında ittifaq sarsılanda, o hakimiyyət də, o dövlət də, o xalq da, o ordu da tarix səhnəsində məğlubiyyətə uğrayır. Buna görə də hakimiyyət-xalq-ordu birliyinin bünövrəsi möhkəm qurulmalıdır. Bunun üçünsə bu birlik nəğməsi bir Himn mahnısı kimi ürəkdən, könüldən, iç dünyasından gəlməli və bir ağızdan oxunmalıdır. Yoxsa ki, el arasında ironik tonla söylənilən "hər ağızdan bir avaz gəlir" ifadəsindəki kimi, hər kəs - hər kəsin ağzı özü istədiyi ayrı-ayrı, yəni müxtəlif havanı (avazla) oxusa, onda heç bir birlikdən, həmrəylikdən söhbət gedə bilməz. Birlik, həmfikirlilik olmadan isə nəinki bir dövləti qurmaq olar, heç adi bir evi də tikmək olmaz. Hakimiyyət xalqla bir olduqda, xalq hakimiyyəti var olur, xalq hakimiyyətinin ordusu isə istər-istəməz xalqla və hakimiyyətlə bir ittihadda olur. Azərbaycanın Silahlı Qüvvələri, Azərbaycan Ordusu xalqın və onun hakimiyyətinin bölünməz vahid tərkib hissəsidir. Xalq, hakimiyyət və ordu bir arada olduqda, qələbə çalmaq da asan olur. Qoy sarsılmaz ordumuz xalqımıza möhtəşəm qələbə sevinci bəxş eləsin!

**Şakir Albalıyev,**
**AMEA Folklor İnstitutunun**
**aparıcı elmi işçisi,**
**filologiya üzrə**
**fəlsəfə doktoru, dosent**

№ 1 - 2 (6793-6794) 9 fevral 2018-ci il

"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

## Milli Qəhrəmanlarımız

# Onun dünyasını yaşadırlar...



(Əvvəli ötən sayımızdan)

İxtisasca tarixçi olan və Balyand kəndindən olan rayonumuzun təhsil şöbəsinin aparıcı mütəxəssisi Əli Əliyevdən öyrəndim ki, Beyləqan rayonunun mərkəzində yaşayırlar. Qardaşı Asifin telefon nömrəsini də tapıb mənə verdi. Əlaqə yaradıb, görüşmək üçün məqam fikirləşdik. Axırı ki, bir gün Beyləqan şəhərinə yola düşdüm. Məni Asif qardaşımız səmimiyyətlə qarşılayaraq yaxın dostları olan Yusif Cavanşir oğlu Məmmədov və Möhübbət Nəriman oğlu Cabbarovla da məni tanış etdi.Yaxınlıqdakı yeməkxanalardan birində oturduq. Onlar da Akiflə bağlı xatirələrini kövrək duyğularla dilə gətirdilər. Danışdılar ki, Akif çox qəhrəmanlıqla həlak olub. 30 erməni yaraqlısı ilə atışa-atışa onları özünə tərəf cəlb edib. Çalışıb ki, dinc əhalini, eləcə də döyüşçü yoldaşlarını ermənilərin hədəfindən yayındırsın. Təkbaşına onlarla döyüşməyi özlüyündə qət edib. Nəticədə özünü fəda edib, öz həyatından keçməklə xeyli sayda insanları azğın düşmənlərdən qoruyub. Onunla bir yerdə döyüşən kapitan Fikrətin də həmin vaxt yaralanmasından danışan Yusif və Möhübbət onu da bildirdilər ki, bu gün bütün Beyləqan camaata Akifin bu misilsiz qəhrəmanlığı ilə qürur hissi keçirir və rayon mərkəzində ona qoyulan büst də rayon əhalisinin daimi ziyarətgahına çevrilib...

Daha sonra Asifin maşınına oturub Akif Əkbərovun adını daşıyan yaşamış olduğu ünvana yollandıq. "Bu evdə az yaşayıb",-dedi qardaşı, tutuldu. Evin həyətinə girdik.Həyətdə sakitçilik idi, deyəsən yaşayış yox idi. Düzü, heç nə soruşmağa ürək eləmədim. Ordan da maşına oturub Milli Qəhrəmanın ailəsi yaşayan ünvana gəldik. Akifin həyat yoldaşı Naridə xanım və ailə üzvləri məni çox mehribanlıqla qarşıladı. Qeyd edim ki, Naridə 23 oktyabr 1959- cu ildə Beyləqanın Şahsevən kəndində anadan olsa da, o da əslən Cəbrayıl rayonundandır.

Masa ətrafında əyləşib Akif Əkbərovun keçib gəlmiş olduğu və nəsillərə qəhrəmanlıq örnəyi kimi qoyub getmiş olduğu şərəfli ömür yolundan bəhs açdıq. Məlum oldu ki, Akifin atası Abbasov Abbas Əkbər oğlu bir müddət Qumlaq kəndində müəllim işlədikdən sonra Beyləqanın Xalac kəndinə, daha sonra isə Beyləqan rayonunun mərkəzinə köçüb orada işləməyə başlayır. Bir müddət kolxoz idarəsində dülgərlik sənətilə də məşğul olur, kolxozda həmkarlar təşkilatında da işləyir. APİ-də qiyabi yolla təhsilini davam etdirir, 2 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində də fəaliyyət göstərir və təqaüdə çıxır. 1983- cü ildə vəfat edir. Akifin anası Zəhra Adıgözəl qızı İsmayılova isə (baxmayaraq ki, onun anası 120 yaşadək yaşayıb, nəslən uzunömürlüdürlər) oğlunun şəhidliyindən 7-8 il sonra -1999- cu ildə ürəyində oğul dağı dünyadan köçdü.

Söhbətimizdə iştirak edən Akifin yaxın qohumu Arif Fərhadov Akif Əkbərovun döyüş yolundan danışaraq bildirdi ki, 1988- ci ilin fevralında ermənilərin Stepanakert adlandırdıqları Xankəndində ilk dəfə çaxnaşma olanda, asayişin bərpa olunmasında yaxından iştirak edib, habelə Xocavənd rayonunun Qaradağlı kəndində gedən ağır döyüşlərdə, Salatın Əsgərovanın şəhid olduğu ərazilərdə, Şuşa, Xocalı şəhərlərində gedən ağır döyüşlərdə də çox böyük xidmətləri olub.

Söhbət zamanı məlum oldu ki, İctimai Televiziyada "Heç kim unudulmur, heç nə yaddan çıxmır" seriyasından Akif Əkbərov haqqında sənədli film çəkilib nümayiş etdirilib. Bundan başqa, ayrı-ayrı vaxtlarda da onun barəsində telereportajlar hazırlanıb, yayımlanıb. Eyni zamanda yerli rayon qəzeti olan "Beyləqan" qəzetinin səhifələrində də Milli Qəhrəmanın döyüş yolunu əks etdirən materiallar öz əksini tapmışdı. Mehriban İsgəndərovanın yazdığı "Zalım duman" adlı məqaləsi də bu sıradan diqqəti çəkən bir yazı idi.

Gülşən Fətiyevanın "Beyləqan bahadırları" ( "Ozan," 1997) adlı Beyləqan şəhidlərinə həsr olunmuş kitabında"Duman, gəl get bu dağlardan"... oçerkindən oxuyuruq:

Əkbərov Akif Abbas oğlu 1952-ci ildə Cəbrayıl rayonunun Balyand kəndində anadan olmuşdur. 1969-cu ildə Beyləqan rayon 2 N-li orta məktəbini bitirmişdir. 1970-1972-ci illərdə keçmiş SSR-nin silahlı qüvvələrində hərbi xidmətdə olmuşdur. 1974- cü ildən Beyləqan rayon Daxili İşlər Şöbəsində işləmişdir. Sonuncu iş yeri Polis şöbəsinin DAM bölməsində yol patrul xidməti müfəttişi, polis starşinası idi.

1991- ci il avqustun 5-də Beyləqan Rayon Polis Şöbəsinin bir qrup əməkdaşı-polis kapitanı Yolçu Əkbərov, serjantlar Rövşən Namazəliyev, Elçin Bayramov, kiçik serjant Tehran Heydərov və milis nəfəri Əlizamin Babayev Kəlbəcər rayonunun "Sarı yer" yaylağında mülki şəxslərin təhlükəsizliyini, eləcə də təsərrüfatlara məxsus mal-qaranı qorumaq məqsədilə oraya ezam olunmuşdu.

Avqustun 12-si idi. Həmin gün Beyləqanda Akifin ölüm xəbəri ildırım sürətilə bütün qapıları döydü..Bu xəbəri eşidəndə həmin yerlər gözlərim önündən birər-birər gəlib keçdi,"Sarı yer"adlanan yaylağa Keyti dağının ətəyindən qalxırlar.Həmişə bu yerlərə pənah aparan yaylaqçılar əllərini göyə açır, Allaha yalvarırdılar ki, yağış yağmasın, hava çiskinli-dumanlı olmasın. Əgər belə olsaydı, Sarı yoxuşu çıxmaq olmazdı. "Sarı yer"in torpağı sarı rəngdədir, yağış yağanda sürüşkən olur. Buna görə də dağa qalxan çobanlar ermənilərlə danışıq apardılar. Ermənilər yol çəkdilər, çobanlar da əvəzində qoyun verdilər. O vaxt heç kəsin ağlına gəlməzdi ki, "kirvə-kirvə" deyib, süfrəmizin başında oturan mələk maskası geymiş bu nankor iblislər bir zamanlar top-tüfənglə üstümüzə gələcəklər"...

Göründüyü kimi, Beyləqan şəhidlərinə həsr olunmuş bu kitabda Azərbaycanın Milli Qəhrəmanı Akif Abbas oğlu Əkbərovun tərcümeyihalında onun Cəbrayıl rayonunun Balyand kəndində anadan olduğu göstərilib. Bir daha xatırladım ki, hələ dinc əmin-amanlıq illərində Cəbrayıl rayonundan onlarla, yüzlərlə ailə köçüb Beyləqan torpağına gəlmiş,burada yurd-yuva, kənd-oba salmış, buranı özlərinə əbədi məskən seçmiş və mədəni-quruculuq işləri aparmışlar. Cəbrayıl camaatı harada yaşayıb-işləməyindən asılı olmayaraq, orada özlərinə məxsus tərzdə sayılıb-seçilmiş, öz hünərləri, qabiliyyət və bacarıqları sayəsində xüsusi fərqlənmişlər. Akifgilin ailəsi də yuxarıda da qeyd etdiyim kimi, bir vaxtlar Cəbrayıl rayonundan Beyləqan torpağına köçüb gəlmiş və burada yaşayıb-işləmiş, fəaliyyət göstərmiş nümunəvi ailələrdəndir. Haqqında danışdığımız Akif Əkbərov da öz həyat eşqi ilə, qısa və şərəfli ömür yolu ilə bir Cəbrayıllı kimi Beyləqan tarixində silinməz iz, möhtəşəm ad-san qoyub getdi: Beyləqanın dörd Milli Qəhrəmanından biri kimi, eyni-zamanda Beyləqan torpağının ilk şəhid övladı kimi. Bundan başqa, Akifin şəhidlik məqamına yetişdiyi dövr hələ SSRİ hökuməti vaxtı idi və belə nəhəng bir dövlətin başçısı Mixail Qorbaçov tərəfindən o, dövlət əmlakını və dinc əhalini qoruduğuna görə Qırmızı Bayraq ordeni ilə də təltif olundu. Bax beləcə, Akif Abbas oğlu qismətinə yazılmış 40 ilə yaxın cismani ömür yolunda misilsiz fədakarlıqlar göstərdi, vətənimizin uğrunda qəhrəmancasına həlak oldu və bu şücaət dövlətimiz, xalqımız tərəfindən yüksək qiymətləndirildi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 264 saylı Fərmanı ilə 8 oktyabr 1992-ci ildə o, ən yüksək fəxri ada layiq görüldü: "Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə Əkbərov Akif Abbas oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin (ölümündən sonra)".

Bundan başqa, onun adı Beyləqanın mərkəzi küçələrindən birinə verilib. Həmçinin Beyləqan şəhərindəki parkların birində onun büstü qoyulub ki, Asiflə həmin parka da getdik büstün yanında şəkil də çəkdirdik.

Qəhrəmanlıq da qanla-genlə gəlir. Akifin atası Abbas müəllim Böyük Vətən müharibəsində şanlı döyüş yolu keçib və bu yol Almaniyaya kimi gedib çıxıb.

Akif də sovet ordusunda Ukraynanın Vinnitsa şəhərində daxili qoşun növündə xidmətdə olub. Dustaq üstündə dururmuş. Elə olur ki, o vaxt türmədən dustaq qaçıb, Akif də cəmi-cümlətanı altı ay imiş ki qulluq edirmiş, gənc əsgər imiş. Qaçan dustağı tutub gətirdiyinə görə ona o vaxt məzuniyyət də vermişdilər. Bu nüansı diqqətə çəkməklə demək istəyirəm ki, Akif atasının döyüşmüş olduğu sovet ordusunda da ləyaqətlə xidmət etdi, dayandığı postda da əzmkarlıq göstərdi. Doğma Azərbaycanımızda da bir polis starşinası kimi öz postunda ayıq-sayıq durdu, hətta ezam olunduğu döyüş zonasında da axıradək andına-məsləkinə sadiq qaldı, son nəfəsinə kimi xalqımızın, vətənimizin azadlığı naminə vuruşub özünü bu müqəddəs amal uğrunda fəda etdi. "Beyləqan bahadırları" kitabında həmin döyüş səhnəsindən bəhs açan fraqmentə nəzər salsaq, bunu aydın şəkildə görərik: "Sabiq milis serjantı Rövşən Namazəliyev də Akiflə çiyin-çiyinə döyüşmüşdü. Ağır dəqiqələri Rövşən belə xatırlayır: "Günorta yeməyini yemişdik. Rəhmətlik Akif xeyli söhbət etdi. Arada dedi ki, oğlumu ürəyim yaman istəyir. Elə evə getmək istəyirəm ki! Sonra da adəti üzrə bizim əraziyə baş çəkmək üçün yoxlama reydinə çıxdılar. Tapşırdıq ki, qorxulu bir şey olsa, üç dəfə göyə güllə atın. Aradan heç bir saat keçmədi ki, güllə səsi gəl-



Atası Abbas müəllim



May 1970. 10-cu sinif (ortada Akif)



Akifin həyat yoldaşı Naridə xanım və övladları




Akifin övladları oxuduğu məktəbdə

# Milli Qəhrəmanlarımız

# Onun dünyasını yaşadırlar...


Solda Akif Əkbərov (Sovet ordusunda)


Akif Əkbərov ailə üzvləri ilə


Beyləqan RPŞ-nin rəisi polkovnik Füzuli Şıxəliyev və Akifin oğlu İlkin

di. Qulaq asdıq, bircə dəfə atıldı. Şübhələndik. Axı bizim parol üç dəfə idi. Üzü çay yuxarı qaçdıq. İstəyirdim ki, Akifə tez çatım.Təpənin döşündə çınqıllıq var idi. Dörd nəfər erməni quldurunun daşların arxasında özlərinə mövqe seçdiklərini gördüm. Böyük bir daş parçasının arxasına keçdim. Özümü topladım ki, onlara atəş açım. Bir də baxdım ki, təpənin o biri tərəfindən ermənilər sürünə-sürünə bizə tərəf gəlirlər. Əl saxladım. Ətrafıma baxdım. Arxada çadırlar alışıb yanırdı. Qabaqda isə Akiflə İdris döyüşürdü. Biz mühasirəyə düşmüşdük. Lakin özümüzə elə mövqe seçmişdik ki, düşmənlər bizim çox olduğumuzu güman edirdilər. Hər tərəfdən onları atəşə tutduq. Bir də baxdım ki, Akif qoyun sürüsünə tərəf sürünür. Arxac bizdən aşağıda idi. Axşam olanda quzularını əmişdirməyə tələsir qoyunlar. Sürünü yığıb aparan erməni dığası vurulmuşdu. Sürü gəc vəziyyətdə qalmışdı. Qoyun-quzu atılan güllələrin vıyıltısından hürkmüşdü. Lazım idi ki, arxadan yelləndirəsən. Akif də bu məqsədlə sürüyə tərəf sürünürdü. Elə bu zaman qatı duman yeriməyə başladı. Döyüş gedirdi. Bir də baxdım ki, təpədəki erməni qulduru məni nişan alıb. Həyatım bir saniyədən asılı idi. Əlli tərpəndim.Onu nişan almağımla güllənin hədəfə dəyməyi bir olmuşdu.Quldur gəbərmişdi. Arxadan gələn ermənilər təpədən qayıtdılar. Düzgün seçilən mövqe, tez-tez yerdəyişmələr, sərrast atılan güllələr quldurların bəd niyyətinin baş tutmasına imkan vermədi. Qonşu dayaq məntəqəsindən bizə kömək gəlmişdi. Milis baş leytenantı İdris Qurbanov bu döyüşdə qolundan yaralandı. Qatı duman çayın dərəsi ilə üzüaşağı axırdı. Erməni dığası sinəsinə sürüyə tərəf gəlirdi. Bir az irəli süründüm. Dığanı nişan aldım. Güllə səsindən hürkən sürü üzüaşağı yelləndi. Atəşi elə açdım ki, torpağı göyə sovurdu. Və beləliklə sürü ermənilərin əlindən çıxdı. Dikə qalxdım. Üç-dörd nəfər erməni yanan alaçığın ətrafında fırlanırdı. Sonra çıxıb getdilər. Bu döyüşdə beş erməni quldur məhv edildi. Bir azdan sonra çayı geriyə tərəf adladım. Yoldaşlarımı haraylадım. Hamı bir yerə yığışdı. Ancaq Akif yox idi. Axtarmağa başladıq. Qatı dumanda göz-gözü görmürdü. İnilti səsinə tərəf getdik. Biz Akifə yetişəndə artıq gec idi... Akif həyatla vidalaşmışdı"...


Akifin böyük nəvəsi Leyla

Budur Akif Əkbərovun timsalında Azərbaycan polisinin siması: öz canından-qanından keçər, ancaq vətənindən, xalqından keçməz. Xalq əmlakına göz dikənlərə hərbə-hədəsinin gücünü göstərər, əhalinin mənfur düşmənlərdən qorunması uğrunda son nəfəsinə kimi əzmkarlıqla mübarizə aparar. Düşmənlə atışmada altı saatlıq amansız mübarizə aparan Akif Abbas oğlu qarın nahiyəsindən ağır yaralanıb, şəhidliyə qovuşdu. Beyləqandakı Peyğəmbər qəbiristanlığında torpağa tapşırıldı. Atasından aldığı hərbi vətənpərvərlik dərsini qəhrəmanlıq örnəyinə çevirdi. Ailədə dörd uşaq idilər-Vaqif, Akif, Asif, Qəmər-3 qardaş, 1 bacı. Hamısı da əsl azərbaycanlı ailəsi kimi saf məhəbbətlə ev-eşik sahibi olmuşdular. Böyük qardaşı Vaqif də Allah rəhmətinə gedib. Mənimlə söhbətdə də qardaşı Asif, bacısı Qəmər, yeznəsi Arif, övladı Əkbər, nəvələri iştirak edirdilər. Yüksək mədəniyyətə malik ailə tərbiyəsi görmüş Akif özü də nümunəvi ailə başçısı olub. Böyük qızı 3 sentyabr 1980- ci il təvəllüdlü Gülnarə Füzuli rayonunun Molla Məhərrəmli kəndində yaşayır və müəllimə işləyir. 3 övlad anasıdır. İkinci övladı Əkbərov Əkbər 1 iyun 1983-cü il təvəllüdlüdür. Rayondakı Fövqəladə Hallar Nazirliyinin bölməsində yanğından mühafizə xidmətində işləyir. 3 övladı var. Üçüncü övladı Zaur fərdi əmək fəaliyyəti ilə məşğuldur. 19 fevral 1985-ci ildəndir. Onun da 3 övladı var. Dördüncü övladı İlkin 30 noyabr 1987-ci ildəndir. 2 övlad atasıdır. Qeyd edim ki, İlkin atasının peşəsinin davamçısıdır. O, Beyləqan rayon Polis Şöbəsində rabitə rəisi vəzifəsindədir. Polis Akademiyasının ikinci kursunda qiyabi təhsil alır. Akifin sonbeşik övladı olan qızı Çinarə isə 18 avqust 1990- cı ildə anadan olub. İki övlad da onun var. O da Beyləqan rayon Mərkəzi Kitabxanasında işləyir.


Akifin övladları

Akif şəhidliyə qovuşanda böyük uşağının 11 yaşı vardı, kiçik uşağı isə 11 aylıq körpə idi. Daha doğrusu, 1 yaşını tamam etməyə heç bir həftə də qalmamışdı. O vaxtdan 26 il keçir. 2 qız, 3 oğul payı bəxş etmişdi uca Tanrı Akif Əkbərova. İndi, maşallah olsun, bu övladlardan 13 nəvə payı da dünyaya gəlib. Övladları atalarının, nəvələri isə babalarının ömür yolunu cismən və mənəvi olaraq davam etdirib yaşadırlar. Allah torpağı sanı onlara, həyat yoldaşı Naridə xanıma, qardaşı Asifə, bacısı Qəmər xanıma və övladlarına ömür versin. Onun övladlarının, nəvələrinin hər biri ox olub düşmənin gözünə batacaq, qiyamətə qalmayacaq qisas günündə düşmənlərindən layiqincə öc alacaqlar. Uğrunda vuruşub şəhadətə yetişdiyi vətən torpağımızın bütövlüyü bərqərar olacaq və onda bütün şəhidlərimizin, eləcə də Milli Qəhrəman Akif Abbas oğlu Əkbərovun ruhu şad olacaqdır. Atalarımız gec olar, güc olar deyiblər. Biz o gücük. Yaşayırıqsa, fəaliyyət göstəririksə, özümüzə güvəniriksə və sabaha qətiyyətlə, inamla, ümidlə gediriksə, biz o qüdrətli gücü Allahın köməkliyilə görk etdirəcəyik. Gücümüzün əsas mənbəyi diriliyimizdə və birliyimizdədir. Var olsun diriliyimizlə birliyimizin sarsılmaz vəhdəti. Milli Qəhrəman Akif Əkbərovun doğmalarını da bu sarsılmaz gücün təmsilçiləri kimi ulu Tanrı qorusun və həmişə var eləsin! Axı onlar həm də öz varlıqları ilə Akif Əkbərovun dünyasını yaşadırlar!..


Əkbər və Gülnarə


Şəhid Akif Əkbərovun dəfn mərasimi

**Şakir Albalıyev**

## Uğurlu Horadiz əməliyyatının iştirakçısı: Biz keçmiş döyüşçülər Ulu Öndərin xidmətlərini heç vaxt unutmayacağıq



1990-cı illərin əvvəlləri çoxlarının yadındadır. Xaos-anarxiya, hakimiyyətsizlik, rəhbərlərin səriştəsizliyi torpaqlarımızın işğalına gətirib çıxarırdı. Vəziyyətin çıxılmaz olduğunu görən Azərbaycan xalqı öz liderini - Heydər Əliyevi hakimiyyətə gətirdi. Bundan sonra ölkədəki ictimai-siyasi vəziyyət dəyişdi. Heydər Əliyevin cəbhə xəttinə tez-tez səfərləri, əsgərlərlə görüşləri onların döyüş ruhunu birəbeş artırdı. Azərbaycan əsgəri öz Ali Baş Komandanına güvənirdi.

Bu sözləri AZ?RTAC-ın bölgə müxbirinə müsahibəsində Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd sakini, Qarabağ müharibəsi veteranı Mətləb Həziyev deyib.

1994-cü ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin də işğaldan azad edildiyi uğurlu Horadiz əməliyyatında iştirak edən Mətləb Həziyev həmin dövrü belə xatırlayır: "1993-cü ildə ordu pərakəndə hala düşmüşdü, vahid komandanlıq yox idi. Düşmən torpaqlarımızı işğal edirdi. Belə bir vaxtda Ulu Öndərin hakimiyyətə qayıdışı biz hərbçiləri də sevindirdi. Qısa vaxtda bütün qüvvələr vahid komandanlığa tabe edildi. Heydər Əliyevin birbaşa cəbhə xəttinə - döyüş gedən bölgəyə gələrək əsgərlərlə görüşməsi isə hərbçilərdə böyük ruh yüksəkliyi yaratdı. Mən özüm Horadiz əməliyyatı zamanı tank bölüyündə taqım komandiri olmuşam. Horadiz əməliyyatı zamanı qısa müddətdə 22 yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini düşməndən azad etdik. Biz keçmiş döyüşçülər Ulu Öndərin xidmətlərini heç zaman unutmayacağıq".

Mətləb Həziyev qeyd edib ki, Cocuq Mərcanlı kəndi işğaldan azad edilsə də, yaxınlıqdakı strateji Lələtəpə yüksəkliyi düşməndə olduğundan orada yaşamaq təhlükəli idi. Ötən ilin aprelində Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində Lələtəpə yüksəkliyinin işğaldan azad olunması Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini də möhkəmləndirdi. Prezident İlham Əliyevin Sərəncamı ilə Cocuq Mərcanlı qısa müddətdə bərpa edildi və 23 ildən sonra burada yaşayış təmin olundu.

"Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu daha da inkişaf edib, güclənib. İnanıram ki, ordumuzun 1994-cü il Horadiz əməliyyatı və 2016-cı ilin aprel döyüşləri zamanı qazandığı qələbələrin davamı gələcək, üçrəngli bayrağımız işğal altında olan digər torpaqlarımızda da dalğalanacaq", - deyə Mətləb Həziyev bildirib.

# Əziz xatirə işığında...



Əziz Sərxan oğlu Məmmədov 30 mart 1952-ci ildə Xələfli kəndində anadan olmuşdu. Orta təhsil aldıqdan sonra ali təhsil almağa qərar verdi. 1970-ci ildə Azərbaycan Politexnik İnstitutuna qəbul oldu. 1975-ci ildə Maşınqayırma texnologiyası. Metalkəsən dəzgahlar və alətlər ixtisasına yiyələndi. Bir müddət yol idarəsində, sonra Kimya Birliyində işləmiş, 1990-cı ilin fevralından “Şərq” kolxozunun sədri vəzifəsinə təyin olunmuşdu.

Əziz Məmmədov 1993-cü ilin avqustunda yaşadığı Tatar kəndindəki evindən didərgin olub, Muğan torpağına pənah gətirir. 2004-cü ilədək dövlət nəzdində əkinçilik işləri ilə məşğul olur, 1 yanvar 2004-cü ildən Biləsuvar rayonu ərazisindəki məcburi köçkün qəsəbəsində kiçik dövlət məmuru kimi fəaliyyət göstərir.

12 aprel 2007-ci ildən isə Əziz Məmmədov Cəbrayıl RİH-nin Xələfli kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi işləyirdi. 2018-ci ilin 21 yanvarında Saatlı rayonunun Mollavaizli kəndi ərazisində avtomobil qəzasında həlak olur.

66 illik ömür yolundan tərcümeyi-hal xarakterli ayrı-ayrı məqamları əks etdirən bu fraqmentar qeydlərin mahiyyətində əslində çox mühüm fikirlər daşınır. Onun öz elində-obasında kolxoz sədri kimi mühüm ictimai vəzifəni üstünə götürməsi, köçkünlükdən sonra da məsul vəzifə postlarında işləməsi cəmiyyətin ağır yükünü çiynində şərəflə daşıyan fədakar bir insanın ömürnaməsindən soraq verir. Amma di gəl ki, bu cür ağırçəkili adamın heç nədən belə gözlənilməz qəfil gedişi bizləri ürəkağrıdıcı dərəcədə mütəəssir etdi.

Allahdan olan kimi bu vaxt yazı masamın üstündə olan “Azərbaycan Ədəbiyyatı Cəmiyyəti”nin 1926-cı ildə nəşr elətdirdiyi “Bayatılar və manilər” toplusuna gözüm sataşdı. istədim ki, onun ruhunu burdakı bayatılarla oxşayam. Aşağıdakı ağının üstündə dayanıb durdum:

Əzizim, bular imiş,
Çeşməli sular imiş.
Əzrayılın adı bədnam,
Can alan bular imiş.

Deyildiyi kimi də yazıya köçürülmüş bu ağıda ölümü Əzrayılın gətirməsi inancının xatırlanması ilə yanaşı, can alanın “bular” (bunlar) işarə əvəzliyilə başqa səbəblər olduğuna eyham vurulub. Bəs “bunlar” əvəzliyi deyildikdə nələr nəzərdə tutulub? İkinci misradakı “çeşməli sular” ifadəsi əbəs yerə işlənməyib. Su aydınlıqdır, nəyinsə bulanıqlıqdan duruluğa çıxmasına işarədir. Deməli, “can alan bular imiş” qənaəti bu məntiqdən doğur. İndi yenə sual edəcəksiniz: hə, indi yenə də biz nə bilək ki, çeşməli suların durultduğu - duruluğa çıxardıb aydınlatdığı Əzrayılsifətli “can alan bunlar” deyildikdə, kimlər, ya nələr düşünülür? Xalq ədəbiyyatında (deyimində) ifadə olunan hikmətə vaqif olmağın bir yolu da həmin ədəbi nümunənin dilə gətirildiyi məqamda konkret olaraq nədən söhbət edildiyini bilməkdədir. Bax bu ağıda da belədir: “Çeşməli sular” hansı bulanıq fikri duruldub, hansı sirrə şəffaflıq gətirir? Folklor örnəyinin səciyyəvi cəhətlərindən birinin onun çoxvariantlı olduğunu xatirimizə gətirsək, onda cavabımızı da özlüyümüzdə təxminləşdirərik. Çoxvariantlı xalq deyimlərinin cavabları-yozumları da onların işlənmə məqamına, şəraitinə görə çoxvariantlıdır, cavablar da müxtəlifdir. Bu, nə deməkdir? Yuxarıdakı ağı hansı sayda, hansı dərəcədə, hansı məclisdə oxunacaqsa, o sayda o qədər də məqamına və işlənmə məkanına uyğun özlüyündə cavablar təyin edəcəkdir...

Əziz Məmmədovu Saatlıdan keçərkən qəfil yaxaladı Əzrayıl... Yox, Əzrayılmı, yazıq “Əzrayılın adı bədnam”dır. Axı “çeməli sular” durultdu fikirlərimizi: “Can alan bunlar imiş” - indi əzrayıl çox vaxt rezin ayaqları, dəmir əzələləri, əlləri, pəncələri olan bir qiyafədə gəlir adamların üstünə. Əziz müəllimin də üstünə bu görkəmdə gəldi. O əzrayıl hər gün hamımızın yollarda rastlaşdığımız, içində oturduğumuz, yol gedib-gəldiyimiz maşınlardır. Deməli, bu məqamdakı “can alan bunlar imiş” deyimindəki “bunlar” işarə əvəzliyinin cavabı “maşınlar” imiş. Bəli, Əziz müəllim bir təsadüfi yol qəzasına tuş gəldi. Özü də özünün əhli-əyalı, köçükülfəti ilə birlikdə bir həmellisinin hüzr mərasimindən gəlirmiş:

Qərib öldü götürün,
Dar küçədən ötürün.
Qəribin vay xəbərin
Kimsəsinə yetirin.

**Haşiyə:** Mən adətən belə hüznlü yazıları qurtarandan sonra onu əvvəlcə evimizdə ailə üzvlərimizlə oxuyub, bölüşürəm. “Qərib öldü götürün” misrası ilə başlayan bayatını oxuyurdum ki, anam Qərənfil Qubuş qızı gerisini dinləmədən birbaşa belə tamamladı bayatını: “Dar küçədən ötürün. Qəribin vay xəbərin Ellisinə yetirin”. Mən isə artıq bundan sonrakı yazılarımı ağ kağız üzərinə yazıb tamamlamışdım. Bayatıdakı “kimsəsinə” sözünün yerinə ananın işlətdiyi “ellisinə” variantını indi eşidirdim. Amma bir folklorçu kimi mənim “kimsəsinə” ifadəsi ətrafında söylədiklərimlə anamın söylədiyi “ellisinə” ifadəsi necə də həmahəng səsləşirdi. Anama mənim yazdığım variantı oxuyanda təsdiq elədi ki, “hə, bala, düzdü, “ellisinə” də deyirlər, “Vətəninə” də, hətta “qardaşına”, “bacısına” da deyirlər. Baxır o harda deyilməyinə, kimə necə deyilməyinə”. Mən bu haşiyəni sonradan bura əlyazımın ortasına əlavə etdim ki, biləsiniz ki, heç nəyi dəyişmədim, sadəcə xalq ruhundakı rəngarəngliyi və bu rəngarəngliyin bir-birini inkar yox, təsdiq etdiyini bir daha göstərmək istədim.

Bəli, Əziz Məmmədov bir qərib kimi dünyasını dəyişdi. Allah o dünyasını versin, məkanı behişt olsun, - deyib biz də bu yazımızda onun qara xəbərini kimsəsinə yetirmək istərdik. Amma onun kimsəsi yalnız cismani əzizləri, doğmaları deyil, həm də xeyirində-şərində yaxından iştirak etdiyi doğma eli-obası idi. Necə ki, elə doğma el-oba camaatımızın birinin yasına öz son borcunu vermək üçün gedib-gəlmişdi. Yox, getmişdi... hələ gəlməmişdi. O hüzrdən gəlmək (qayıtmaq) ona qismət olmadı. Mürəkkəb kəlmə kimi işlətdiyimiz “gedib-gəlmək” ifadəsinin arası qədər də ömrü olmadı, bu qoşa tərkibli ifadənin mənasını tamamlamağa aman vermədi amansız ölüm. Yarımçıq qaldı onun bu səfəri. Bu səfəri doğmaları-əzizləri ona son borclarını gedib verməklə başa çatdırdılar.

Biz də əziz xatirə işığında qələmə aldığımız bu yazımızla Əziz müəllimə mənəvi borcumuzu vermək istədik.

Allah sizə rəhmət eləsin, Əziz müəllim. Əziz xatirəniz sizi tanıyanların xatirəsində həmişə əziz tutulacaqdır!

**Əlifoğlu Ş.**

# “Tərəqqi” medalına layiq görülmüş həmyerlimiz



Nazim Möhü oğlu Behbudov 6 yanvar 1969-cu ildə Şahvəlli kəndində anadan olub. 1976-1986-cı illərdə orta məktəbdə oxuyub. 1987-1989-cu illər sovet ordusunda xüsusi təyinatlı alayda hərbi xidmətdə olmuşdur.

1989-1992-ci illərdə Şuşa şəhəri və ətraf kəndlərin müdafiəsi üçün yaradılmış könüllü müdafiə dəstəsinə qoşulmuş, Şuşa rayon Polis Şöbəsinin tərkibində yadelli işğalçılara qarşı döyüşmüşdür.

1993-cü ilin oktyabrından Beyləqandakı “N” saylı hərbi hissənin tərkibində Füzuli, Beyləqan, Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Ordudan tərxis olunduqdan sonra Dəmiryolunun yol təsərrüfatının müxtəlif vəzifələrində işləmiş və “Yol təsərrüfatı” İstehsalat Birliyinin şöbə müdiri təyin edilmişdir. Dəmiryolunun yol təsərrüfatının incəliklərini öyrənmək üçün Ukrayna Dövlət Dəmiryolu Nəqliyyatı Akademiyasında ali təhsil almışdır.

Dəmiryolunun xidməti istifadə üçün bir neçə kitabların hazırlanmasında bilavasitə iştirak etmişdir və həmin kitablar istehsalatda istifadə olunur. Azərbaycan Dəmiryolu rəhbərliyi 2012-ci ilin aprelində onu “Fəxri dəmiryolçu” döş nişanı ilə təltif etmişdir. Daha sonra rəhbərlik onu Həmkərlar Təşkilatına seçmiş, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının III, IV, V qurultaylarına nümayəndə seçilmişdir. Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqları Respublika Komitəsinin üzvüdür.

Nazim Möhü oğlu Behbudov Beynəlxalq Əmək Təşkilatına və Beynəlxalq Dəmiryolu Nəqliyyatı İşçilərinin Həmkarlar İttifaqının konqres və konfranslarına nümayəndə seçilmiş, Beynəlxalq Əmək Təşkilatlarının sertifikatlarına layiq görülmüşdür. Əmək hüquqlarının qorunmasında biliyini artırmaq üçün Beynəlxalq Bakı Dövlət Sosial Akademiyasında hüquq ixtisası almışıdır. 2 oğlu, 1 qızı var, onlar şəhid Hafiz Fətəliyevin adını daşıyan orta məktəbdə dərs əlaçısıdırlar.

Nazim Behbudov 2007-ci ildən Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqları Respublika Komitəsində mütəxəssis vəzifəsində işləyir.

Azərbaycan Həmkarlar İttifaqı Konfedrasiyasının əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2018-ci il tarixli Sərəncamında həmyerlimiz Nazim Möhü oğlu Behbudovun da adı vardır. O, bu Sərəncama əsasən “Tərəqqi” medalına layiq görülmüşdür.

Bu münasibətlə Nazim müəllimi təbrik edir və ona göstərilən yüksək etimadı bundan sonra da əməli fəaliyyətində doğrultmasını arzulayırıq.

**“Xudafərin”**

## Vətəndaşların nəzərinə!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il fevral ayının 24-də saat 10:00-da Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı şəhər və rayonlarının sakinlərini Şirvan şəhər Polis Şöbəsində qəbul edəcəkdir.

Vətəndaşlar daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

**Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.**

***CƏBRAYIL RAYON POLİS ŞÖBƏSİ***

## Azərbaycan Respublikasının Baş prokuroru İmişli şəhərində vətəndaşları qəbul edəcəkdir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə müvafiq olaraq, cari ilin fevral ayının 16-da saat 10:00-da Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov tərəfindən İmişli rayon prokurorluğunun inzibati binasında Cəbrayıl rayon sakinlərinin qəbulu keçiriləcəkdir.

Qəbula gəlmək istəyən vətəndaşların qeydiyyatı və İmişli şəhərinə gəlmələrinin təmini (nəqliyyat vasitəsinin ayrılması və s.) Cəbrayıl rayon prokurorluğu tərəfindən həyata keçiriləcəkdir.

Vətəndaşların qaldırdıqları məsələlər yalnız prokurorluq orqanlarının səlahiyyətinə aid olmalıdır.

Vətəndaşlar Cəbrayıl rayon prokurorluğuna yazılı və şifahi müraciət etməklə qəbula yazıla bilərlər.

**Cəbrayıl rayon prokurorluğu**

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti

RİH-nin Xələfli kənd İƏD üzrə nümayəndəsi

**Əziz Sərxan oğlu Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

## Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti

Kazımova Qərənfil Şirin qızı, Misirxanov Mirim Səyyaf oğlu, Surxayov Hacı Rəzzaq oğlu, Hüseynov Mönsüm Allahverdi oğlu, Quliyeva Sona Həzrətqulu qızı, Abbasov Qayıb İmamverdi oğlu, Məmmədova Türkanə Sərdarqızı, Əzizov Əziz Yusif oğlu, Gülməmmədova Güllü Şirin qızı, Əhmədov Novruz Məhəmməd oğlu, Həsənova Firuzə Fərhad qızının

**vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Açıq Səma” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 387**
**Tiraj: 1000**